

# REKORD SAYDA QƏBUL

Bu il ali təhsil müəssisələrinin müsabiqəsində 82 883 nəfər iştirak edib. Onlardan 55 656 nəfəri ali təhsil müəssisələrinə qəbul olunub.

Nəticələr açıqlandıqdan sonra ən yüksək keçid balına malik ixtisaslar da dəqiqləşib. İlk sırada Bakı Ali Neft Məktəbinin informasiya təhlükəsizliyi ixtisası dayanır - 687 bal. İkinci sırada isə Azərbaycan Tibb Universiteti qərarlaşıb.

Tibb ixtisasına keçid 681 bal olub. İlk beşlikdəki sonrakı üç yer yenə də Bakı Ali Neft Məktəbinə məxsusdur: Kimya mühəndisliyi - 678 bal, Kompüter elmləri - 673,5 bal, Kompüter mühəndisliyi - 673 bal.

SƏHİFƏ 14-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

24 AVQUST ŞƏNBƏ 2024 № 32 (4183) Qiyməti - 40 qəpik www.kaspi.az





## GEOSİYASİ VAHİD VƏ SİYASİ-İQTİSADİ GÜC

Rusiya Prezidenti Vladimir Putinin Bakıya həm ikitərəfli, həm də regional format baxımından uğurlu səfəri Azərbaycanın geosiyasi vahid və siyasi-iqtisadi güc olaraq qəbul edilməsinin parlaq göstəricisidir.

SƏHİFƏ 3-də



## ASAN VİZA, HOTELLƏRƏ NƏZARƏT VƏ MARAQLI MARŞRUTLAR

Azərbaycana gələn turistlərin sayında ciddi artım müşahidə edilir. 2024-cü ilin yanvar-iyul aylarında ölkəyə dünyanın 182 ölkəsini təmsil edən bir milyon 502,7 min əcnəbi və vətəndaşlığı olmayan şəxs daxil olub.

SƏHİFƏ 10-da




## NƏ SUÇİÇƏYİDİR, NƏ DƏ KORONAVİRUS

Meymunçiçəyi xəstəliyi dünyada yenidən tüğyan edir. Xəstəlik artıq qonşu ölkələrdə də müşahidə olunub. Rusiyada xəstəliyə iki nəfər yoluxub. Xatırladaq ki, meymunçiçəyi xəstəliyi dünyada 2022-ci ildən yayılıb.

SƏHİFƏ 7-də



# RƏSMƏN MÜTTƏFİQ OLDUQ

Prezident İlham Əliyev özbəkistanlı həmkarı Şavkat Mirziyoyevin dəvəti ilə Özbəkistana dövlət səfəri edib. Səfər çərçivəsində imzalanan sənədlərlə iki ölkə arasındakı münasibətlər rəsmən müttəfiqlik səviyyəsinə qaldırılıb.

**ALİ SƏVİYYƏLİ BEYNƏLXALQ SƏNƏD**

Prezident İlham Əliyev bildirib ki, bu gün Azərbaycan və Özbəkistan rəsmən müttəfiq oldular. Dövlət başçısı vurğulayıb: "Bu gün biz rəsmən müttəfiqlər olduq. Əslində, razı olardım ki, bu, tarixi məqamdır. Müttəfiqlik münasibətlərinə dair müqavilə iki ölkənin imzalaya biləcəyi ali səviyyədə beynəlxalq sənəddir".

**XANKƏNDİDƏ BİRGƏ LAYİHƏ**

Prezident bildirib ki, danışıqlarda Xankəndidə yüngül sənaye müəssisəsinin yaradılmasını müzakirə edib: "Yalnız mühüm olan bir layihəni ayrıca qeyd etmək istərdim. Bu, işğaldan azad olunmuş Xankəndi şəhərində yeni yüngül sənaye müəssisəsinin yaradılması ilə bağlıdır".

SƏHİFƏ 2-də

"VYETNAMDA 70-Ə YAXIN AZƏRBAYCANLI VAR"

## UŞAQLIQ DOSTLUĞUNDAN AİLƏYƏ UZANAN YOL



Deyirlər ən böyük sevgilər dostluqla başlayır. Bu dostluq uşaq vaxtından qurulubsa, daha möhkəm olur. Onların da hekayəsi uşaqlıqdan başlayıb. Amma nə bilsinlər ki, gələcəkdə ailə quracaqlar və birlikdə tanımadıqları ölkədə xoşbəxt olacaqlar. Budəfəki "Ailə" rubrikamızın qonaqları hazırda Vyetnamda yaşayan Əli və Səidə Əlizadələrdir. Əlinin Asiya ölkələri ilə tanışlığı əvvəldən olub. Çində ingilis dili müəllimi işləyib.

SƏHİFƏ 8-9-da



## MİLLİ İRSİMİZİN YORULMAZ MÜDAFİƏÇİSİ

Birinci vitse-prezident Mehriban xanım Əliyeva üçün ən böyük mükafat dövlətinin müstəqilliyi və suverenliyidir. Birinci vitse-prezidentin ictimai-siyasi xadim olaraq fəaliyyətinin başlıca qayəsi güclü və müstəqil Azərbaycandır.

SƏHİFƏ 4-də




## "ƏLİNİ VERİRSƏN, QOLUNU QOPARDIRLAR"

Bir sıra ölkələrdə lombardlarla bağlı xüsusi qanunvericilik aktları olduğu halda Azərbaycanda onların fəaliyyəti ayrıca tənzimlənmir. Qanunvericilikdəki boşluqlar isə müəyyən problemlərə yol açır.

SƏHİFƏ 11-də



## SƏNƏTİNİN FƏDAİSİ OLAN AKTYOR

"Şahmar sənətin fədaisi idi. O, 48 yaşında dünyasını dəyişdi. Amansız xəstəlik ona yaradıcılığını davam etdirməyə imkan vermədi. Şahmar həddindən artıq təbii insan idi".

SƏHİFƏ 15-də




Mövqelərimizi daha da gücləndirəcək addım

SƏHİFƏ 5-də




SOCAR Özbəkistanda sərgidə təmsil olunur

SƏHİFƏ 14-də



ABŞ-nin növbəti hədəfi Serbiyadır

SƏHİFƏ 6-da



Qarpız kəsdim bal kimi

SƏHİFƏ 12-də



Daha çox oyun, daha çox gəlir

SƏHİFƏ 16-da

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





# RƏSMƏN MÜTTƏFİQ OLDUQ

**Prezident İlham Əliyev özbəkistanlı həmkarı Şavkat Mirziyoyevin dəvəti ilə Özbəkistana dövlət səfəri edib. Səfər çərçivəsində imzalanan sənədlərlə iki ölkə arasındakı münasibətlər rəsmən müttəfiqlik səviyyəsinə qaldırılıb.**



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Avqustun 23-də Daşkənddəki "Kuksaroy" dövlət iqamətgahında Prezident İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub. Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva qarşılayıblar.

Daha sonra dövlət başçılarının məhdud tərkibdə görüşü olub. Görüşdə Azərbaycan ilə Özbəkistan arasında münasibətlərin strateji müttəfiqlik xarakteri daşıması məmnunluqla vurğulanıb, enerji, nəqliyyat, turizm sahələrində əməkdaşlıq müzakirə olunub, beynəlxalq və regional məsələlər ilə bağlı fikir mübadiləsi aparılıb.

Avqustun 23-də prezidentlərin iştirakı ilə Azərbaycan-Özbəkistan Ali Dövlətlərarası Şuranın birinci iclası keçirilib. Azərbaycan-Özbəkistan sənədlərinin imzalanması mərasimi olub, daha sonra dövlət başçıları mətbuata birgə bəyanatla çıxış ediblər.

### "BİZ BU GÜN TARİX YAZDIQ"

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Prezidentinin Özbəkistana dövlət səfərini iki ölkə arasında çoxəsrlik dostluq münasibətlərinin inkişafında tarixi hadisə adlandırıb və dövlətlərarası qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsində yeni mərhələnin başlandığını bildirib: "Bu gün hörmətli İlham Heydər oğlu ilə müttəfiqlik münasibətlərinə dair müqavilə imzaladıq. Bu sənəd dövlətlərarası qarşılıqlı fəaliyyətimizin möhkəmləndirilməsində yeni səhifənin açılması ilə əlamətdar olacaq. Biz bununla çoxplanlı tərəfdaşlığımızın hərtərəfli inkişafı kursuna möhkəm sadiqliyimizi təsdiq etdik".

Onun sözlərinə görə, Özbəkistanın müttəfiqlik münasibətləri saxladığı ölkələrin sayı çox azdır, amma indiyədək heç bir ölkə ilə bu cür qısa müddətdə belə müqavilə imzalanmayıb: "Biz bu gün tarix yazdıq. Bu tarix öz təcəssümünü Azərbaycan və Özbəkistan xalqlarının rifahında tapacaq".

## "Sosial layihələr bugünkü Özbəkistanın simasıdır"

Azərbaycan Prezidenti İlham Əliyev özbəkistanlı həmkarı Şavkat Mirziyoyevlə mətbuata bəyanatında Özbəkistanın sürətli inkişafını qeyd edib. Dövlət başçısı deyib: "Müxtəlif dövrlərdə, xüsusən son illər Özbəkistana dəfələrlə səfər etmişəm və Şavkat Miromonoviçin rəhbərliyi ilə özbək xalqının həyata keçirdiyi möhtəşəm dəyişiklikləri əyani şəkildə görmüşəm. Şəhərlər gözəlləşir, sənaye fəal inkişaf edir. Daşkəndə ötən səfərimdə biz birlikdə böyük sənaye kompleksində olduq. Bütün bunlar müdrik siyasətin nəticəsidir. Xarici investisiyaların cəlbi, əlverişli biznes mühitinin yaradılması, sosial-iqtisadi inkişafa dair aparılan gündəlik iş, çoxlu sayda sosial layihələr bugünkü Özbəkistanın simasıdır".

Dövlət başçısı bildirib ki, Özbəkistan təkcə regionda deyil, həm də dünya miqyasında yüksək siyasi nüfuza malik olan ölkəyə çevrilib. "Biz buna səmimi-qəlbdən sevinirik. Şavkat Miromonoviçin müdrik siyasətinin son təzahürü özbək idmançılarının Yay Olimpiadasında tarixi uğuru oldu. Onlar çoxlu medal qazandılar, onlardan 8-i qızıldır. Həmçinin müsəlman ölkələri arasında birinci və dünyada 13-cü yeri tutdular. Bu, tarixi nailiyyətdir", - Prezident İlham Əliyev deyib.

Prezident iki ölkə arasında imzalanan sənədlərdən də danışıb. Bildirib ki, bu gün Azərbaycan və Özbəkistan rəsmən müttəfiq oldular. Dövlət başçısı vurğulayıb: "Bu gün biz rəsmən müttəfiqlər olduq. Əslində, razı olardım ki, bu, tarixi məqamdır. Müttəfiqlik münasibətlərinə dair müqavilə iki ölkənin imzalaya biləcəyi ali səviyyədə beynəlxalq sənəddir. Biz bu gün Daşkənddə həqiqətən də münasibətlərimizin yeni fəslini deyil, kitabını yazırıq. Bu gün iki qardaş xalq, iki müstəqil, güclü, suveren, nüfuzlu dövlət rəsmi müttəfiq oldu. Bu, çox mühüm xarici siyasət addımıdır və gələcək illərdə münasibətlərimizi, həmçinin bir çox hallarda regional siyasəti müəyyən edəcək".



İlham Əliyev bildirib ki, regionlarımızda müsbət proseslər Daşkənd ilə Bakı arasında səmərəli əməkdaşlıqdan asılıdır.

## XANKƏNDİDƏ YÜNGÜL SƏNAYE MÜƏSSİSƏSİ

Azərbaycan Prezidenti mətbuata bəyanatında bildirib ki, özbəkistanlı həmkarıyla danışıqlarda işğaldan azad olunmuş Xankəndi şəhərində yüngül sənaye müəssisəsinin yaradılması layihəsini müzakirə edib.

"Yalnız mühüm olan bir layihəni ayrıca qeyd etmək istərdim. Bu, işğaldan azad olunmuş Xankəndi şəhərində yeni yüngül sənaye müəssisəsinin yaradılması ilə bağlıdır. Bu, xalqlarımızın qardaşlığının və dostluğunun daha bir rəmzidir. Biz həmişə - istər işğal dövründə, istərsə də İkinci Qarabağ müharibəsi illərində və sonra özbək xalqının qardaş dəstəyini hiss etmişik. Mən bu gün bu barədə danışmışam, Özbəkistan ilk ölkədir ki, Prezidentin təşəbbüsü ilə bizə təkcə mənəvi dəstək göstərməklə yanaşı, həm də azad olunmuş ərazilərin bərpasında kömək edib", - Prezident bildirib.

### AZƏRBAYCAN-ÖZBƏKİSTAN İNVESTİSİYA FONDU

İqtisadi əlaqələrin digər istiqamətlərinə də toxunan Prezident İlham Əliyev bildirib ki, Azərbaycan və Özbəkistan birgə İnvestisiya Fondunun kapitalını artırmalıdırlar. "İkitərəfli gündəliyi və üçüncü ölkələrə investisiyalarla çıxışı artıracağıq. Qardaş ölkələr, müttəfiqlər kimi inamla, layiqincə, çiyin-çiyinə addımlayırıq və irəliləməyə davam edəcəyik", - o deyib.

Səfər çərçivəsində Daşkənddə prezidentlərin hər iki ölkənin işğuzar dairələrinin nümayəndələri ilə görüşü keçirilib.

Həmçinin, Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva avqustun 23-də Daşkənddə Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva ilə görüşüb. Birinci xanımlar Daşkənddə "Mexrli" məktəbi ilə tanış olublar, Özbəkistanın Xalq rəssamı Akmal Nurun əsərlərindən ibarət sərgi ilə tanış olub və Özbəkistan milli geyimlərindən ibarət kolleksiyaya baxıblar.

# GEOSİYASİ VAHİD VƏ SİYASİ-İQTİSADİ GÜC



Prezident İlham Əliyevin uğurla yürütdüyü diplomatiya nəticəsində bu gün Cənubi Qafqaz hərbi-siyasi məzmunlu çəkişmə arealı deyil, iqtisadi-siyasi sağlam rəqabət arenasıdır. Rusiya Prezidenti Vladimir Putinin Bakıya həm ikitərəfli, həm də regional format baxımından uğurlu səfəri Azərbaycanın geosiyasi vahid və siyasi-iqtisadi güc olaraq qəbul edilməsinin parlaq göstəricisidir.



RÜSTƏM QARAXANLI

Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana dövlət səfəri və onun nəticələri tək ikitərəfli münasibətlər kontekstində deyil, eyni zamanda, regional miqyasda və daha geniş coğrafiyada tamamilə yeni və keyfiyyətcə fərqli dövrün başlanğıcı hesab olunmalıdır. Rusiya kimi dövlətlə bərabərhüquqlu və milli maraqlara əsaslanan siyasət yürütməyi yalnız təməsaslı müstəqil dövlətlər bacara bilərlər. Bu baxımdan, Putinin Bakıya həm ikitərəfli, həm də regional format baxımından uğurlu səfəri Azərbaycanın geosiyasi vahid və siyasi-iqtisadi güc olaraq qəbul edilməsinin parlaq göstəricisidir.

### AZƏRBAYCAN TƏSƏVVÜR EDİLMƏYƏNƏ NAİL OLMAĞI BACARIB

Prezident İlham Əliyev xarici siyasət məzmunlu çıxışlarında dəfələrlə bəyan edib ki, Azərbaycan tam müstəqil dövlətdir və yürütdüyü kurs, getdiyi yol ilk növbədə milli mənafelərinə söykənir. Əslində, 30 illik işğala və ədalətsiz geosiyasi basqılara cəmi 44 gündə son qoyub sinə gərmək, torpaqlarını işğalçıdan geri almaq yalnız tam müstəqil dövlətlərin qaldıra biləcəyi yükdür. 2020-ci ilin 44 günlük müharibəsindən sonra izlənənlər də bu müstəqilliyin və beynəlxalq arenada tutduğumuz mövqenin ciddiliyi, əldə etdiyimiz hörmətin həqiqiliyinin təzahürüdür. Azərbaycan tək postsovet məkanında deyil, daha geniş müstəvilərdə təsəvvür edilməyənə nail olmağı bacarıb: bir tərəfdən torpaqlarını geri alıb, digər tərəfdən isə adekvat, qarşılıqlı maraqlara hesablanmış sağlam ikitərəfli münasibətlər fonunda Rusiya sülhməramlılarının hətta vaxtından əvvəl ərazisini tərk etməsinə nail olub. Bu, beynəlxalq platformalarda yetkin imic və reputasiya, beynəlxalq hüquqa əsaslanan möhkəm mövqelər deməklə yanaşı, həm də ikitərəfli əlaqələrdə etibar və etimadın mövcudluğunu təsdiqləyən ciddi amildir.

Ərazicə o qədər də böyük ölkə olmayan, müstəqillik tarixi cəmi 30 il olan Azərbaycan bu gün hamı tərəfindən qəbul edilən geosiyasi vahiddir. Bu, sıradan sözlər deyil. Əsil müstəqil siyasət ölkəyə məxsus resurs və alətlərdən xalqın maraqları və dövlətin mənafeləri uğrunda effektiv şəkildə istifadə etmək sənətidir. Bu gün Azərbaycan bunu nəinki bacarır, eyni zamanda, digər dövlətlərə məxsus resurslardan öz xeyri naminə yararlanmağı belə mümkün sayır. Bu, artıq geosiyasi münasibətlərin keyfiyyətcə yeni mərhələsidir. Putinin Bakıya səfəri zamanı müzakirə olunan mövzular məhz buna dəlalət edir və ilkin nəticələrdən belə qənaətə gəlmək olar ki, Azərbaycan bu istiqamətdə ciddi uğurlar qazanmağın astanasındadır.



## CƏNUBİ QAFQAZDA İQTİSADİ ÇİÇƏKLƏNMƏ DÖVRÜ



Prezident İlham Əliyevin uğurla yürütdüyü diplomatiya nəticəsində bu gün Cənubi Qafqaz hərbi-siyasi məzmunlu çəkişmə arealı deyil, iqtisadi-siyasi sağlam rəqabət arenasıdır. Bu reallıq tək Azərbaycan xalqı deyil, həmçinin regionda mövcud olan və yaşayan digər dövlətlər və toplumlar üçün siyasi fürsətdir. Dünyanın ən dinamik və mürəkkəb nöqtələrindən biri olan Qara dəniz-Xəzər dənizi hövzəsinin tükənməz mübarizə və konfrontasiyada olan güc mərkəzlərinin maraqlarının uzlaşdığı, yaxud uzlaşdırıldığı məkana çevrilməsi inqilabi nailiyyətdir. Söhbət nədən gedir?

Bu gün sonu görünməyən Rusiya-Ukrayna (Qərb) ziddiyyətləri fonunda Şərq-Qərb logistik dəhlizi kimi qlobal iqtisadi prosesin ən sabit ünvanı məhz Xəzər dənizi-Cənubi Qafqaz-Avropa xətti qəbul olunur. Bu dəhlizin fəaliyyət göstərməsi və genişlənməsi ilk növbədə Qərbin maraqlarına cavab verir. Ermənistanın havadarlarının mənasız və yersiz dirəşməsi fonunda Zəngəzur dəhlizi bu transmilli prosesin perspektivli budaqlarından biri qismində nəzərdən keçirilir.

Paralel olaraq, iri iqtisadi potensiallı olan Baltik dənizi və Şimali Avropanı Hind okeanına bağlayan Şimal-Cənub dəhlizinin də əsas arteriyasının Azərbaycan ərazisindən keçməsi həm uğurumuzdur, həm də böyük iqtisadi dividentlər deməkdir. Fərqli pressinqə rəğmən, Azərbaycanın Şimal-Cənub xəttinə də bir növ ev sahibliyi etməsi bizim Rusiya və İranla gələcək bərabərhüquqlu, sabit və etibarlı tariximizin əsasını təşkil edəcək. Putinin bunu Bakıda rəsmən dilə gətirməsi dövlətimizin ciddi diplomatik qazancıdır.

## PUTİNİN SƏFƏRİNDƏ UKRAYNA AMİLİ

Putinin Bakıya səfəri kontekstində ciddi müzakirələrə yol açmış mövzulardan biri də Ukrayna amilidir. Hələlik rəsmi açıqlamalar səslənməsə də, güman ki, Azərbaycan Moskva-Qərb gərginliyi reallığında Ukrayna vasitəsilə ötürülən qazın nəql edilməməsi səbəbindən bu boşluğu doldurmaq üçün ciddi imkanlara malikdir. Belə bir təklif həm Avropa İttifaqı rəsmiləri, həm də Kiyev tərəfindən səsləndirilib. Yəni təşəbbüs faktiki olaraq qarşı tərəfdən gəlib. Gürcüstan-Türkiyə-Avropa istiqamətində fəaliyyət göstərən kəmərlə qazını Qərbə ixrac edən Azərbaycan üçün bu, cəlbedici və reallaşdırılması mümkün olan təşəbbüsdür. Bu baxımdan, daha bir məqam diqqəti cəlb edir: Azərbaycan Ukrayna ilə Rusiya arasındakı qarşıdurmanın sənginməsi üçün əlverişli moderator qismində çıxış edə bilər. Bunun üçün tələb olunan faktorlar yetərincədir. Əvvəla, rəsmi Bakının həm Moskva, həm də Kiyevlə müsbət dinamikalı siyasi münasibətləri mövcuddur. Söhbət ikitərəfli əlaqələrlə yanaşı, Azərbaycan Prezidentin həm rusiyalı, həm də ukraynalı həmkarları ilə pozitiv işgüzar əlaqələrə malik olmasından gedir. Hər iki ölkənin dövlət başçıları Azərbaycan liderinə etibar edir və həlledici anda bu etimada əsaslana bilərlər.

# MİLLİ İRSİMİZİN YORULMAZ MÜDAFİƏÇİSİ



Birinci vitse-prezident, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva üçün ən böyük mükafat dövlətinin müstəqilliyi və suverenliyidir. Birinci vitse-prezidentin ictimai-siyasi xadim olaraq fəaliyyətinin başlıca qayəsi güclü və müstəqil Azərbaycandır. O, bunu sahib olduğu siyasi iradə, əzmkarlıqla dəfələrlə nümayiş etdirib.



**AZAD ƏLİYEV**
azad.eliyev@kaspi.az

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə qurulan güclü və qüdrətli Azərbaycanın inkişaf yolunun əsas memarlarından biri də Birinci vitse-prezident, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevadır. Milli dəyərlərimizə, humanizm ideallarına bağlılığı, Vətəninə və xalqına sonsuz sevgisi Mehriban xanımı müasir Azərbaycanın rəmzlərindən birinə çevirib.

### MÜKAFATLARIN ƏN DƏYƏRLİSİ

Bu illər ərzində bəşəriyyət qarşısındakı misilsiz xidmətlərinə görə çoxsaylı mükafatlara, orden və medallara layiq görülən Mehriban xanım Əliyeva üçün ən böyük mükafat xalqının ona olan sonsuz məhəbbəti, dövlətinin müstəqilliyi, suverenliyidir. Birinci vitse-prezidentin ictimai-siyasi xadim olaraq fəaliyyətinin başlıca qayəsi güclü və müstəqil Azərbaycandır. O, bunu sahib olduğu siyasi iradə, əzmkarlıqla dəfələrlə dünyaya nümayiş etdirib. Tarixi qələbəmizdən sonra ölkəmizə qarşı sərgilənən ikili standartlara etiraz olaraq birinci xanım bir çoxlarının sahib olmaq istədiyi nüfuzlu mükafatlardan imtina edib. Bu mövqe ilə Mehriban xanım onun üçün Azərbaycan xalqının, dövlətinin milli maraqlarının hər şeyin üstündə olduğunu bir daha nümayiş etdirib.

### YÜZLƏRLƏ MƏKTƏB, SƏHİYYƏ OCAQLARI, MUĞAM...

Bu gün Azərbaycanda elə bir sahə yoxdur ki, Mehriban xanım Əliyevanın diqqət və qayğısını hiss etməsin. Məhz onun təşəbbüsü ilə ölkəmizdə yüzlərlə məktəb və bağça, uşaq evi ən müasir standartlara uyğun yenidən qurulub. Səhiyyə ocaqları, xəstəxanalar müasir avadanlıqlarla təmin edilib. Ekoloji mühitin yaxşılaşdırılması, təbiətin mühafizəsi ilə bağlı çoxsaylı aksiyalar, ağacəkmə kampaniyaları keçirilib. Milli musiqimizin incisi muğamımıza yeni həyatın verilməsi, onun dünyada tanıdılması, gənc istedadların aşkarlanıb xüsusi diqqət və qayğı ilə əhatə olunması, mədəni-mənəvi, tarixi irsimizin beynəlxalq səviyyədə təbliği də Mehriban xanımın adı ilə bağlıdır.

### YARDIMSEVƏRLİK, HUMANİST TƏŞƏBBÜSLƏR

Yardıma ehtiyacı olan hər bir insana kömək əlini uzatmaq, problemlərinə yüksək humanist prinsiplərlə yanaşmaq Birinci vitse-prezident, ictimai-siyasi xadim olaraq Mehriban xanımın fəaliyyətinin əsas qayələrindən birini təşkil edir. Məhz onun təşəbbüsü ilə ölkəmizdə çoxsaylı sosial dəstək proqramları həyata keçirilir. Xüsusilə də şəhid ailələri, müharibə veteranları, sağlamlıqlarını ölkəmizin ərazi bütövlüyü uğrunda itirən qazilərimiz daim Azərbaycan dövlətinin yüksək diqqət və qayğısını hiss edirlər. Birinci vitse-prezidentin təşəbbüsləri və səyləri nəticəsində Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən sosial dəstək proqramlarının miqyası, əhatə dairəsi, əlçatanlığı daha da genişlənir. Mehriban xanımın humanizm prinsiplərini əsas tutaraq əlamətdar günlərdə dəfələrlə əfv və amnistiya təşəbbüsləri ilə çıxış etməsi, bu təşəbbüslərin dövlətin ali rəhbərliyi tərəfindən müsbət qarşılanması neçə-neçə ailələrə sevinc bəxş edib.

## DÜNYAYA NÜMUNƏYİK

Azərbaycanın sahib olduğu tolerantlıq, müxtəlif dinlər və xalqların bir çətir altında mehribancasına yaşaması ənənələrinin inkişafı da bu gün Birinci vitse-prezidentin xalqı qarşısındakı əvəzedilməz xidmətlərindən sayılır. Məhz Mehriban xanımın təşəbbüsü ilə ölkəmizdə məscidlər, ziyarətgahlar, sinaqoqlar, katolik və provaslav kilsələr yüksək zövq, tarixiliklə müasirliyin vəhdətini təşkil edən şəkildə bərpa edilib, onların sərbəst fəaliyyəti üçün hər cür şərait yaradılıb. Bu diqqət və qayğı nəticəsində Azərbaycanın sahib olduğu tolerantlıq mühiti dünyada nümunəyə çevrilib.



### QALİB ÖLKƏNİN QALİB GƏNCLƏRİ

İndi Azərbaycan dünyada qalib ölkə kimi tanınır, qəbul edilir. Dövlətimizi müxtəlif idman yarışlarında, müsabiqələrdə təmsil edən idmançılarımız da bayrağımızı qürurla dalğalandırırlar. İdman sahəsində əldə etdiyimiz nailiyyətlər ildən-ilə artır, bu sahəyə gənclərin kütləvi axını müşahidə edilir. Təbii ki, gənc nəslin mübariz, vətənpərvər və sağlam ruhda yetişməsi də Azərbaycan dövlətinin, Birinci vitse-prezidentin əsas diqqət yetirdiyi sahələrdəndir. Son Olimpiada Oyunlarında gimnastlarımızın, digər növlərdəki təmsilçilərimizin uğurlu iştirakı, Mehriban xanımın əldə olunan hər nəticədən sonra təmsilçilərimizə xüsusi diqqət göstərərək onları şəxsən təbrik etməsi Azərbaycan gəncliyinin inkişafına, idmana olan diqqət və qayğının göstəricisidir.



## BİRİNCİ XANIMIN DƏST-XƏTİ

Bu gün Azərbaycan dövləti qarşısında duran ən başlıca vəzifələrdən biri də işğaldan azad edilmiş ərazilərimizin bərpası və məcburi köçkünlərimizin doğma yurdlarına layiqli qayıdışının təşkilidir. Bu məsələdə Mehriban xanım Əliyevanın rolu və fəaliyyəti danılmazdır. Rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən işğaldan azad edilmiş ərazilərimizdəki tarixi-mədəni abidələrimizin, məscidlərimizin bərpası yüksək keyfiyyət, zövq və peşəkarlıqla həyata keçirilir. Mədəniyyət paytaxtımız Şuşanın, Ağdamın, Kəlbəcərin və daha neçə-neçə kənd və şəhərlərimizin yenidən qurulan simasında birinci xanımın dəst-xəti aydın şəkildə hiss olunur. Milli dəyərlərimizi, ənənələrimizi əks etdirən cizgilərin yaradılması, bu torpaqların qədim Azərbaycan ərazisi olduğunu göstərən yanaşma, yüksək ixtisaslı mütəxəssislərin bu işlərə cəlb edilməsi, hər kiçik məqama yüksək həssaslıq və diqqət göstərilməsi - bütün bunların hamısı doğma yurdlarında keçmiş məcburi köçkünlərimizin layiqli həyat şəraitini təmin etmək üçündür. Prezident İlham Əliyev də Mehriban xanımın bu işlərdəki rolunu xüsusi qeyd edib.

Tarixi qələbəmizdən sonra Azərbaycan özünün ən parlaq dövrünü yaşamaqdadır. Bu nailiyyətlərin əsasında isə Prezident İlham Əliyev və onun ən yaxın silahdaşı olan Mehriban xanım Əliyevanın çoxillik zəhməti, yorulmaz fəaliyyəti dayanır.

# MÖVQELƏRİMİZİ DAHA DA GÜCLƏNDİRƏCƏK ADDIM

Azərbaycan üçün BRICS-in imkanları cəlbedicidir. Bu, rəsmi Bakının genişlənən xarici siyasətinə mənfəət gətirir və ölkənin məruz qala biləcəyi siyasi-iqtisadi təzyiqləri minimallaşdırmağa yardımçı olur.



AQŞİN KƏRİMOV



Azərbaycan Respublikası BRICS-ə (Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrika) daxil olmaq üçün rəsmi müraciət edib. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin açıqlamasında bildirilib.

Xatırladaq ki, bu il iyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" qəbul olunub. Bəyannamədə Azərbaycan BRICS-ə daxil olmaq arzusunu ifadə edib və Çin BRICS əməkdaşlığında Azərbaycanın iştirakını alqışlayıb.

Azərbaycan BRICS-ə üzv olmaqla xarici siyasətində çoxtərəfli ticarət sistemini böyütməyi hədəfləyir. Bundan başqa, Bakı üzvlüklə özünə dünya iqtisadiyyatında qlobal böhranların nəticələri ilə bağlı təhdidlərə qarşı immunitet qazanmış olur.

**BRICS VARLANIR**

BRICS tarixi dönüş yaradacaq genişlənməyə başlayacağını elan edən prioritetlərini 2023-cü ilin avqustunda Yohannesburqda keçirilən zirvə görüşündə açıqlayıb. Zirvə Bəyannaməsinə əsasən, Misir, Efiopiya, İran, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Argentina təşkilata üzv qoşul-mağa dəvət edildi (Argentina sonradan bu təklifi qəbul etmədi, Səudiyyə Ərəbistanı isə hələ müraciəti nəzərdən keçirir).

BRICS hələ genişlənməmişdən öncə inkişaf edən iqtisadiyyatlar qrupu kimi yaxşı göstəricilərə malik olub. BRICS qlobal Ümumi Daxili Məhsulun 26 faizini və dünya əhalisinin təxminən 41 faizini təşkil edirdi. BRICS-in genişlənməsi ilə proqnozlaşdırılır ki, bu, təşkilata ÜDM baxımından əlavə 2.6 trilyon ABŞ dolları qazandıracaq. Bu da 28.5 trilyon dollarlıq ümumi BRICS iqtisadiyyatını və qlobal məhsulun 28 faizini təşkil edir.

Ticarət prizmasından genişlənmiş BRICS qlobal neft hasilatının 43 faizindən çoxunu təşkil etməklə gücünü ikiqat artırır.



BRICS həm də Səudiyyə Ərəbistanı, İran və BƏƏ-ni öz sıralarına qatmaqla Yaxın Şərqdə geostrateji imkanlarını genişləndirir.

**STRATEJİ QAZANCLAR**

Göründüyü kimi, BRICS iqtisadiyyatdan da artıq bir təşkilatdır və əlavə strateji qiymətə malik olan platforma kimi rolunu artırır. Çünki BRICS-in iqtisadiyyatda çeviklik qazanması onun qlobal idarəetməyə və geosiyasətə təsirlərini maksimallaşdırır. Bu səbəbdəndir ki, BRICS geosiyasi və geoiqtisadi cəhətlərin harmoniyasında strateji cəhətdən Qərbin üstünlüklərini əvəz edən əks çəki qazanmaqdadır.

BRICS-in forma və məzmun tutumu qlobal gücün bölüşdürülməsini balanslaşdıran zəruri prioritetlər meydana çıxarır. Azərbaycan üçün bu təşkilatın gücü və imkanları məqbuldur, çünki Bakı iqtisadiyyatdakı vitrinlərdə özünün "məhsullarını" yerləşdirməyə imkanlar qazanır. Bu, Azərbaycanın genişlənən xarici siyasətinə mənfəət gətirir və Bakının məruz qala biləcəyi siyasi-iqtisadi təzyiqləri minimallaşdırmağa yardımçı olur.

## REGİONAL QÜDRƏT İNDEKSİNDƏKİ YERƏ TƏSİR

Söz yox ki, Azərbaycan bununla geosiyasi mülahizələrə yol açan tənqidlərlə qarşılaşır. Çünki Bakının strateji seçim imkanlarını əhəmiyyətli dərəcədə çoxaldacaq BRICS faktoru kimlərinsə kürkünə birə salıb. Ona görə ki, Azərbaycan beynəlxalq münasibətlərin getdikcə kəskinləşdiyi zamanda real qüvvətli rıçaqlar əldə edir və bu, onun Ermənistan üzərindən təzyiqlərindən tutmuş Cənubi Qafqazdan Mərkəzi Asiyaya, Yaxın Şərqə qədər uzanan strateji cığırında əmsallarını artırır.

Eyni zamanda, Azərbaycan Qərb-Rusiya-Çin arasındakı dağınıq nizamda geosiyasi sütunlarını ucaltmaqla regional qüdrət indeksindəki yerini yüksəklərə qaldırır. Məsələnin başqa aspektləri Azərbaycan-Türkiyə strateji tandeminin çəkisini qaldırmaqla əlaqəli şəkildə təhlil edilə bilər. Çünki Türkiyə də BRICS-ə qoşulmaq istəyini ifadə edib, beləliklə, Bakı və Ankara:

- Türk Dövlətləri Təşkilatında strateji tandemi qüvvətləndirən və dərinləşdirən prioritetlər qazanır,
- Cənubi Qafqaz və Mərkəzi Asiyadan yola çıxaraq beynəlxalq arenada danılmaz sürət qazanırlar və böyükmiqyaslı genişlənmə əməliyyatlarını prioritetləşdirirlər.

## HİNDİSTANIN AMBİSİYALARININ NEYTRALLAŞDIRILMASI

BRICS-də iştirak Azərbaycan üçün vacib strateji məqsəd olan Orta Dəhlizdəki və Zəngəzur dəhlizi layihəsindəki prioritetlərini irəlilətmək baxımından faydalıdır. Çünki regionda dünyanın alternativ qüdrəti kimi formalaşmış Çin Avropa ilə əlaqədar maraqlarını Orta Dəhliz üzərindən qurur və Azərbaycanın bu koridordakı iştirakını ərsəyə gətirəcəyi səmərələri qiymətləndirir. BRICS-də təmsil olunan Hindistanın Cənubi Qafqazda Azərbaycan əleyhinə Ermənistanı ayaqlandırmasına qarşı olaraq Çin amilindən istifadə də Bakı üçün yaxşı seçimdir. Yəni, Azərbaycanın BRICS-də həm də onun qarşısında dayanan Hindistanın ambisiyalarına Çin üzərindən nəzarət ediləcək diplomatiyanı həyata keçirmək planını əks etdirə bilər.



Ancaq BRICS-də Azərbaycanın təmsilçiliyi onun Hindistanla əlaqələrinə də müsbət təsir edəcək bir ipdir. Bununla avtomatik olaraq Ermənistan amili Hindistanın nəzərində diqqətdən kənarda qala bilər.

Buna görə də, BRICS-dəki təmsilçiliyin Azərbaycana yalnız faydalar gətirəcəyini proqnozlaşdırmaq mümkündür. Həmçinin, Azərbaycan yeni siyasi təşəbbüslər üçün fərqli tribuna qazanacaq. Bu, Azərbaycanın beynəlxalq güclər arasında nizam-intizamla məsafə saxlaması xəttinin davam edəcəyinə və təzyiqlərə qarşı müqavimət formasını təcəssüm etdirməsinə güc verəcək.

# ABŞ-nin NÖVBƏTİ HƏDƏFİ SERBİYADIR



**ABŞ-nin Balkanlarla bağlı çox məxfi planı işə salınıb. Məlumata görə, Vaşinqton artıq bölgə üzrə yeni xüsusi nümayəndə təyin edib. Bu posta Aleksandr "Saşa" Kasanof təyin edilib. Adıçəkilən şəxs postsovet məkanında "inqilablar müəllifi" kimi tanınır.**



AZƏR NURİYEV

Dünyanın müxtəlif regionlarında gərginlik yaratmaq, bu gərginlikdən istifadə edib oraya müdaxilə və təsir imkanlarını artırmaq Birləşmiş Ştatların prioritet siyasətinə çevrilib. Qafqazdan tutmuş Şərqi Avropaya, Afrika, Latın Amerikası və Asiyaya kimi bu siyasətin elementlərini görürük. Məsələn, Vaşinqton Cənubi Qafqazda Ermənistan vasitəsilə "suları bulandırmağa" çalışır. Açıq görünür ki, dünyanın müxtəlif bölgələrində münaqişə ocaqları yaradıb, milyonlarla insanın fəlakətlər yaşamasına imza atan ABŞ bu istiqamətdə bütün imkanları ilə hərəkətə keçib.

### HEÇ ZAMAN AZALMAYAN MARAQ

ABŞ Ukraynanın ardınca növbəti dəfə Balkanlara yönəlib. Bölgə sürətlə və yenidən dünyanın barıt qoxulu məkanına çevrilmək üzrədir. Kosovonun şimalında serblərlə toqquşmalar yaşanıb. Görünən odur ki, ABŞ ilə Rusiyanın mübarizəsi artıq bu bölgəyə keçir. Cənubi Qafqazdan və Mərkəzi Asiyadan tutmuş Afrika qitəsinə qədər uzanan qarşıdurma yeni oyunçuların iştirakı ilə əhatə dairəsini genişləndirir. Əslində, Vaşinqtonun Balkanlara marağı heç zaman azalmayıb. Sadəcə, Rusiya-Ukrayna müharibəsi səbəbindən diqqət buradan yayınıb. Lakin son vaxtlar bölgədə artan gərginlik diqqəti yenidən buraya yönəldib. ABŞ rəsmilərinin bölgəyə səfərlərinin sayı artıb.

Xatırladaq ki, Balkan ölkələrinin əksəriyyəti uzun illər keçmiş SSRİ-nin müttəfiqi olub. SSRİ dağıldıqdan sonra Balkanlar Rusiya ilə tərəfdaşlığına baxmayaraq, ABŞ və Avropa ilə də əməkdaşlığını gücləndirməyə qərar verib. Bu durum həmin vaxt üçün Vaşinqtonla Brüsselin maraqlarına cavab verirdi.



## MƏXFİ PLAN İŞƏ SALINIB

İndi isə Ukraynadakı müharibə səbəbindən gərginləşən münasibətlər fonunda vəziyyət dəyişib. Qərb mediasında yer alan xəbərlərə görə, bölgə ilə bağlı məxfi plan işə salınıb. Məlumata görə, ABŞ Balkanlarda xüsusi nümayəndə təyin edib. Bu posta Aleksandr "Saşa" Kasanof təyin edilib. Adıçəkilən şəxs postsovet məkanında "inqilablar müəllifi" kimi tanınır. Ukraynada 2014-cü il Maydan hadisələri zamanı ABŞ-nin bu ölkədəki səfirliyində siyasi müşavir kimi fəaliyyət göstərib. Həmin hadisələrin nə ilə başa çatdığı bəllidir. Məlumat üçün bildirək ki, "Saşa" Kasanof Balkanlarda Qeybriel Eskobarı əvəzləyib. Onun əvəzlənməsinə əsas səbəb kimi qarşıya qoyulan hədəflərə çata bilməməsi göstərilir. Bu hədəflər sırasında Serbiya ilə Kosovo arasında münasibətləri normallaşdıra bilməməsi göstərilib. Görünən də odur ki, qarşıda Balkanlar həqiqətən də yenidən münaqişə ocağına çevrilə bilər.



Aleksandr Vuçiç

### YENİ TOQQUŞMALAR YAŞANACAQ?

Əslində Balkanlarda da yeni toqquşmaların yaşanacağı, bölgənin yenidən müharibə meydanına çevrilə biləcəyi ilə bağlı narahatlıqlar təsadüfi deyil. Bu qənaət ABŞ-nin dünyanın ayrı-ayrı bölgələrində yaşanan xaosu idarə edərək bu qarşıdurmadan milyardlarla dollar gəlir götürməsi ilə əsaslandırılır.

Türkiyənin nüfuzlu nəşrlərindən biri "Yeni şafak" qəzetində yer alan məlumatda bildirilir ki, Birləşmiş Ştatların dünyada destruktiv rol oynaması, gərginlik və sabitsizliyə yol açması faktdır.

## 31 MİLYARDLIQ SİLAH SATIŞI

Nəşr yazır ki, dünyanın ən böyük silah ixracatçısı olan Birləşmiş Ştatlar qazanc əldə etmək üçün müharibələri və regional münaqişələri qızışdırmağa davam edir: "Cəmi bir il ərzində ABŞ öz siyasətinin qurbanlarının qanı ilə qidalanaraq 238 milyard dollar dəyərində silah və texnika satıb. Vaşinqton administrasiyası tək bir gündə 31 milyard dollar dəyərində silah satışını təsdiqləyib. İsrailə - 20 milyard dollar, Polşaya - 10 milyard, Səudiyyə Ərəbistanına isə 1 milyard dollar dəyərində silah satışı reallaşıb. ABŞ üç fərqli satışla bir gündə 31 milyard dollar qazanıb".

İndi isə silah bazarının genişləndirilməsi imkanları nəzərdən keçirilir. Burada ən optimal seçim imkanlarından biri də məhz Balkanlardır. Çünki bölgə tarixən qanlı müharibələrə, xaos və zorakılıqlara meydan olub.

### DÖVLƏT ÇEVRİLİŞİNƏ CƏHD

Qeyd edək ki, Balkan dövlətləri arasında Qərb və ABŞ-nin əsas hədəfinin Serbiya olduğu da məlumdur. Bir müddət əvvəl ölkə prezidenti Aleksandr Vuçiçə qarşı dövlət çevrilişinə cəhdlə bağlı məlumatlar yayılmışdı. Bu faktı prezident özü də etiraf edib. Yenə də dövlət çevrilişinə cəhd planının arxasında ABŞ və Qərb xüsusi xidmət orqanlarının dayandığına dair iddialar var. Vaşinqton bu iddiaları rədd etsə də, serbiyalı siyasətçilər ölkədəki etiraz aksiyalarının arxasında məhz Vaşinqton və Brüsselin dayandığı qənaətindədir. Hətta bu cəhdlərin yuxarıda qeyd olunan məxfi planın tərkib hissəsi olduğunu düşünənlər də var.

Beləliklə, görünən odur ki, Balkan dövlətlərinin həyatında yeni bir təhlükəli səhifə açılmaqdadır. Bu prosesin əsas təkanverici qüvvəsi isə ABŞ-dir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

E-mail: kaspiqazeti@kaspi.az

# NƏ SUÇİÇƏYİDİR, NƏ DƏ KORONAVİRUS



**Meymunçiçəyinə qarşı bütün dünya yenidən tədbirlər görməyə başlayıb. Həkimlərin fikrincə, profilaktik tədbirlər görməklə xəstəlikdən yan keçmək mümkündür.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Meymunçiçəyi xəstəliyi dünyada yenidən tüğyan edir. Xəstəlik artıq qonşu ölkələrdə də müşahidə olunub. Rusiyada xəstəliyə iki nəfər yoluxub. Xatırladaq ki, meymunçiçəyi xəstəliyi dünyada 2022-ci ildən yayılıb. Həmin dövr ərzində ölkəmizdə bu xəstəliyə yoluxma qeydə alınmamışdı. Ümumilikdə isə dünyada bu xəstəlikdən cəmi 167 ölüm hadisəsi müşahidə olunub. Lakin hazırda dünya ölkələri yenidən həyəcan təbili çalırlar. Bəs Azərbaycan üçün meymunçiçəyi nə qədər risklidir? Qonşularımızdakı təhlükə ölkəmizə də gələ bilərmi? Özümüzü bu bəladan necə qoruyaq?

### VAKSİNASİYA TƏDBİRLƏRİ GÖRÜLMƏLİDİR

Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov bildirir ki, virusun ötürülməsi xəstə heyvan, insan və ya virusla çirklənmiş materiallarla təmas yolu ilə baş verir: "Viruslar bədənə zədələnmiş dəri, nəfəs yolları və ya selikli qişalarla (ağız, burun, göz) daxil olur. Heyvandan insana ötürülmə dişləmə, cırmaqlama, ov ətinin yeyilməsi, bədən mayeləri ilə birbaşa və yara materialları ilə dolayı yolla baş verir. İnsandan insana ötürülmənin ilk növbədə iri respirator damcılarla baş verdiyi düşünülür. Yoluxma üçün uzunmüddətli və sıx təmas olmalıdır".

T.Eyvazovun sözlərinə görə, xəstəliyin gizli dövrü adətən 5-21 gündür. Beş günədək davam edə bilən başlanğıc dövrdə qızdırma, şiddətli baş ağrısı, limfa düyünlərinin böyüməsi, bel və əzələ ağrıları, bəzən kataral və mədə-bağırsaq əlamətlərinə rast gəlir: "Qızdırmadan 1-3 gün sonra təbii çiçəyi xatırladan xarakterik qovucuqlu səpgilər yaranır. Üz nahiyəsindən başlayır və bədənin digər nahiyələrinə keçir. Əsas risk qrupları hamilə qadınlar, immundefisitli şəxslərdir. İnfeksiyanın profilaktikası gigiyenik qaydalara əməl olunması və vaksinasiya tədbirlərindən ibarətdir".



Təyyar Eyvazov

### BÜTÜN İLKİN PROFİLAKTİK TƏDBİRLƏR GÖRÜLÜR

Nazirliyin rəsmisi bildirdi ki, ölkəmizdə bu infeksiyaya yoluxma halları qeydə alınmayıb. İnfeksiyanın yayılmaması məqsədilə bütün ilkin profilaktik tədbirlər aidiyyəti qurumlar tərəfindən icra olunur: "Ümumilikdə hazırda Azərbaycanda digər infeksiyalar da nəzərə alınmaqla epidemioloji durum sabitdir, nəzarət altındadır. Ölkəmizə meymunçiçəyi virusunun laborator müayinəsi üçün testlər və xəstəliyə qarşı lazımi dərman preparatları gətirilib. Meymunçiçəyi virusuna qarşı vaksinə gəldikdə, vaksinlər az miqdarda istehsal olunur və yalnız bu virusa endemik ölkələrə paylanılır".

### BÜTÜN ÖLKƏLƏR TƏHLÜKƏ ALTINDADIR

İnfeksionist Vasif Əliyev isə düşünür ki, xəstəlik qlobal xarakter daşıdığından bütün ölkələr təhlükə altındadır: "Afrikada artıq iki ildir mövcuddur, 2022-ci ildən etibarən ortaya çıxıb. Meymunçiçəyinin iki növü var. İkinci tip birinci tipə görə daha yüngül hesab olunur. O səbəbdən virusun hansı tipinə yoluxmaq da çox önəmlidir. Meymunçiçəyi Afrika ölkələrində yayılmış olsa da, artıq digər dövlətlərdə də yoluxmalar müşahidə edilir. Bu səbəbdən Azərbaycan da risk qrupuna daxildir. Çünki səyahətlər zamanı virusun bir ölkədən digərinə sıçraması mümkündür. Ölkəmizdə bu xəstəliyə qarşı dərmanlar gətirilib".

**5% dir — Bu xəstəlikdən ölüm riski**

## ƏLAMƏTLƏRİ VEZİKULYAR SƏPKİLƏRDİR

V.Əliyev meymunçiçəyini digər xəstəliklərlə də müqayisə etdi: "Meymunçiçəyi xəstəliyinin əlamətləri vezikulyar səpkilərdir. Hansı ki, bu səpkilər suçiçəyinə bənzəyir. Amma ondan ölçü cəhətdən daha böyük olur. Həmçinin yerləşdiyi yer də fərqlidir. Daha çox ətraflarda, qollarda, ayaqlarda, üzdə görülür. Gövdədə o qədər də olmur. Eyni zamanda əl və ayaq içlərində, ovucda bu cür yaralar görülə bilir. Bu xəstəlikdə də yüksək hərarət olur. Amma koronavirusdan fərqlənir. Çünki koronavirus daha çox tənəffüs yollarından keçirdi. Meymunçiçəyində isə dəri səpkiləri olur. Oxşar xüsusiyyətləri isə insandan insana keçməsidir. Meymunçiçəyi siçan və sincablardan da insana yoluxa bilir".

## BU NƏSLİN NÜMAYƏNDƏLƏRİ TƏHLÜKƏDƏDİR

**167 — Dünyada meymunçiçəyi xəstəliyindən qeydə alınan ölüm hadisəsi**

İnfeksionistin fikrincə, bu xəstəlikdən çiçək peyvəndi ilə qorunmaq olardı, lakin insanlar peyvənd olunmur: "Konqodan verilən statistikaya görə, bu xəstəlikdən ölüm riski beş faizdir. Daha əvvəl çiçək peyvəndi olunmuş şəxslər 85 faiz ehtimalla bu xəstəliyə qarşı da qorunmuş olur. Çünki meymunçiçəyi də həmin xəstəliklər ailəsinə daxildir. Sadəcə, burada bir məqam var ki, 1980-ci illərdən bəri çiçək virusuna qarşı peyvəndləmə aparılmır. O baxımdan həmin ildən sonrakı nəslin nümayəndələri risk qrupuna daxildir. Xüsusilə də azyaşlı uşaqlar və xroniki xəstəliyi olan insanlar bu xəstəliyi daha ağır formada keçirə bilərlər. Ağırlaşmalar və ölüm səbəbləri pnevmoniya, sepsis, ensefalit, görmənin zəifləməsi mümkündür".

Həkim vətəndaşlara tövsiyələrini də verdi: "Suçiçəyi səpkilərinə bənzər səpkiləri, hərarəti olan, xüsusilə də səyahət etmiş insanlar mütləq şəkildə həkim müayinəsində olmalıdırlar. Meymunçiçəyi xəstəliyindən şübhələnilirsə, ilk olaraq test aparılmalı, xəstəyə diaqnoz qoyulmalıdır. Diaqnoz qoyulduqdan sonra həmin şəxsin digər insanlarla təmasının qarşısı alınmalıdır. Risklərdən qorunmaq üçün təmas lokallaşdırılmalıdır. Yəni, xəstə izolyasiya olunmalıdır".



Vasif Əliyev

**Xəstəliyin gizli dövrü — 5-21 gündür**

“AYRI-AYRI ÖLKƏLƏRDƏ OLDUĞUMUZ ÜÇÜN BİR-BİRİMİZİ İTİRMƏKDƏN QORXURDUQ”



# UŞAQLIQ DOSTLUĞUNDAN AİLƏYƏ UZANAN YOL



SÖHBƏTLƏŞDİ
ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

**Əli:** “Sevdiyim şəxsin həmişə Səidə kimi olmasını istəmişdim. Həmişə elə tipdə insan axtarırdım. Sonra dedim ki, başqasını axtarmağa ehtiyac yoxdur, qoy o insan Səidə olsun”

**Səidə:** “Nə Çinə, nə də Vyetnama gəlmək istəyirdim. Amma sırf Əli istədiyinə görə fədakarlıq etdim. Evləndikdən iki ay sonra 10 gün içərisində qərar verib buraya gəldik”

Deyirlər ən böyük sevgilər dostluqla başlayır. Bu dostluq uşaq vaxtından qurulubsa, daha möhkəm olur. Onların da hekayəsi uşaqlıqdan başlayıb. Amma nə bilsinlər ki, gələcəkdə ailə quracaqlar və birlikdə tanımadıqları ölkədə xoşbəxt olacaqlar. Budəfəki “Ailə” rubrikamızın qonaqları hazırda Vyetnamda yaşayan Əli və Səidə Əlizadələrdir. Əlinin Asiya ölkələri ilə tanışlığı əvvəldən olub. Çində ingilis dili müəllimi işləyib. Hazırda isə bu fəaliyyətini Vyetnamda davam etdirir. Cütlüyümüzün sosial şəbəkələrdə bloqları da mövcuddur. Hansı ki, bununla onlar izləyicilərini Asiya ölkələri ilə tanış edirlər.

**“UŞAQ VAXTI ONUNLA AİLƏ QURACAĞIMI HEÇ VAXT DÜŞÜNMƏMİŞDİM”**

Əli deyir ki, qohum olsalar da, evlilikləri sevgidən yaranıb: “2014-cü ildən səkkiz il sevgililik dönəmimiz olub. Özümüzü evliliyə hazır hiss etdikdə qərar verdik ki, ailə quraq. Ailələrimizə dedik, onlar da razı oldular. Münasibətimiz olduğunu heç kəs bilmirdi”.

Səidənin sözlərinə görə isə, səkkiz illik sevgililik dönəmindən öncə uşaqlıq dostu olublar: “Əli ilə uşaq vaxtından çox yaxın dost idik. Uşaq vaxtı Əli ilə ailə quracağımı heç vaxt düşünməmişdim. Amma Əlini həqiqətən çox istəyirdim. O, nəsə lazım olanda mənə, mən isə ona deyirdim. Əli ilə çox xatirələrim var. Bəlkə də bacımla o qədər xatirəm yoxdur. Münasibətlərimiz dostluqdan evliliyə doğru irəlilədi. Evlilik dönəmi çox maraqlıdır. Çünki hər anın sevdiyin insanla keçir”.

**“SEVGİMİ İLK MƏN ETİRAF ETDİM”**

Əli həmişə gələcək həyat yoldaşının uşaqlıq dostu kimi olmağını istəyib: “Kənddə qonşuluqda bir qız var idi. Mənim ondan xoşum gəlirdi. Səidə də həmin qızın dostu idi. O vaxt onunla aramızı düzəltməyə çalışırdı. Sevdiyim şəxsin həmişə Səidə kimi olmasını istəmişdim. Həmişə elə tipdə insan axtarırdım. Mənim üçün ideal model idi. Sonra dedim ki, başqasını axtarmağa ehtiyac yoxdur, qoy o insan Səidə olsun. Sevgimi ilk mən etiraf etdim”.

**“BİR-BİRİMİZİ İTİRMƏKDƏN QORXURDUQ”**

“Səkkiz illik münasibətdə hansı çətinlikləriniz olub” sualına gəldikdə Əli bildirdi ki, ayrı mədəniyyətlərdə münasibətdə problemlər olması mümkündür: “Münasibətimiz başlayanda Səidə Türkiyəyə oxumağa getdi. Dörd ildən sonra qayıdanda mən Çinə getdim. Bu səbəbdən münasibətimiz uzaq məsafəli idi. Yaşadığımız ölkələrdəki saat fərqinə görə çox danışa bilmirdik. Həmçinin mədəniyyətlər də fərqlidir. Hərəmiz getdiyimiz ölkəyə uyğunlaşmağa çalışırdıq. Bəzən qısqanclıqlar da baş verirdi”.



> *Münasibətimiz başlayanda Səidə Türkiyəyə oxumağa getdi. Dörd ildən sonra qayıdanda mən Çinə getdim. Bu səbəbdən münasibətimiz uzaq məsafəli idi. Yaşadığımız ölkələrdəki saat fərqinə görə çox danışa bilmirdik. Həmçinin mədəniyyətlər də fərqlidir.*

Səidə: “İlk başda ayrı qalmağı Əli problem edirdi. Çünki Türkiyəyə ilk mən getdim. İnsan bir yerə gedəndə dəyişir. Mənim dəyişməyimi Əli qəbul edə bilmirdi. Bu səbəbdən problem yaşayırdıq. Əlidə məni itirmək qorxusu var idi. Elə bilirdi ki, mən oraya gedib dəyişəcəyəm. Sonra Əli Çinə gedəndən mən onu qısqanmağa başladım. Çünki Əlinin ətrafında qız dostları var idi. Amma indi burada yaşayanda onu anlayıram. Görürəm ki, burada dostluqlar tamamilə fərqlidir. Mən hər zaman bitirən tərəf olmuşam, Əli isə hər zaman bərpa edirdi”.

**“MƏNİM ƏN YAXIN MƏSLƏHƏTÇİMDİR”**

Səidənin fikrincə, onların uzunmüddətli münasibətlərinin səbəbi Əlinin problemləri böyütməməsidir: “Əlidə ən çox bəyəndiyim xüsusiyyət odur ki, hər zaman idarə edən tərəfdir. Sözlərimiz çəp gələndə anlayışla, sakit şəkildə problemi böyütmür. Onun bu özəlliyini çox sevirəm. Həmçinin, mənim ən yaxın məsləhətçimdir. Biz küsülü qalmırıq. Bu, maksimum 10 dəqiqə çəkər. Problem nədirsə, oturub danışırıq, həll etməyə çalışırıq”.

Əli isə Səidənin mərhəmətini sevir: “Səidə çox qayğıkeşdir. Xəstələndikdə başımdan ayrılmaz, daim qulluğumda dayanar. Mən o qədər qayğıkeş deyiləm. Çox mərhəmətli insandır. Mənim üçün bu iki xüsusiyyət əsasdır. Bir çox hallarda bir-birimizə deyirik ki, çox safsan hər şeyə tez inanırsan”.

**“FƏRQLİ FİKİRLƏRİMİZƏ HÖRMƏT EDİRİK”**

Ortaq xüsusiyyətləri olsa da, cütlüyün fərqli fikirləri də olur. Əli deyir ki, fərqli cəhətlərini bir-birilərini anlayaraq ötüşdürürlər: “Məsələn, mən bu günlə yaşayan insanam, uzaq gələcəyi düşünmürəm. Mənim fikrimcə, hər şeyin zamanı var. Amma Səidədə əksinədir”.

Səidə də hesab edir ki, fərqli fikirlərə hörmət etmək lazımdır: “Xoşbəxt ailənin təməli də qarşılıqlı hörmət, bir-birini anlamaq, başa düşməkdir. Hörmət olmadıqda sevgi də işə yaramır”.

**“BURADA HAMI POZİTİVDİR”**

Əli əvvəldən Asiya ölkələrinə bələd olsa da, Səidə üçün buraya gəlmək o qədər də asan olmayıb: “Nə Çinə, nə də Vyetnama gəlmək istəyirdim. Amma Əli həmişə deyirdi ki, ya Çinə, ya da hər hansı bir Asiya ölkəsinə gedəcəyik. Ailəmə çox bağlıyam, hələ də onlar üçün darıxıram. Amma həm Əlinin istəyinə görə, həm də həyatımızı qurmalı olduğumuz üçün fədakarlıq etməli idim. Evləndikdən iki ay sonra 10 gün içərisində qərar verib buraya gəldik. Azərbaycandakı iki ayımız, çox da yaxşı keçmədi. Çünki Əli xoşbəxt deyildi. O, xoşbəxt olmadığı üçün mən də xoşbəxt deyildim. Amma bura gələndən sonra həyatımız tamamilə fərqli oldu. Evliliyi ölkə xaricində keçirməyimiz bizə daha rahat gəldi”.



Əli deyir ki, üç il Çində yaşayandan sonra Azərbaycana uyğunlaşmaq ona çox çətin gəlirdi: “Pandemiya dönəmini də Çində keçirdim. Gələndən sonra gördüm ki, Azərbaycanda çox şey dəyişib. Asiya ölkələrini çox sevirəm, ikinci vətənim kimidir. Ömrümün sonuna kimi Çində yaşayaram. İnsanlarda gördüyüm gülərüzlük, səmimiyyət əvəzsizdir. Buradakı insanlar çox varlı olmasalar da hər kəs gülür, hamı pozitivdir. İnsanlar gülə-gülə cavab verir, daim kömək etməyə çalışırlar”.

**“QORXDUĞUM BAŞIMA GƏLDİ”**

Səidə sevgisi üçün fədakarlıq edib başqa ölkəyə gəlib, lakin ilk təəssüratları o qədər də ürəkaçan olmayıb: “Məndə belə bir düşüncə var idi ki, onlar ilan-qurbağa yeyirlər. Bir də qorxurdum ki, Çin və Vyetnam kommunist ölkəsi olduğundan hicabım onlar üçün problem olar. Amma gələndən sonra gördüm ki, elə deyil. Lakin ilk gəldikdə mənim üçün çox çətin idi. Birinci balaca şəhərə getdik, əhalisi az idi deyə, ora mənim üçün çox sıxıcı oldu”.

Səidəyə Vyetnamı sonradan sevdirən Hanoy şəhəri və oranın əhalisi olub: “Hanoya gələndən sonra ətrafımızda azərbaycanlılar, başqa xaricilər oldu, daha çox sosiallaşdım. Düşünürəm ilk Hanoy şəhərinə gəlsəydim, heç bir çətinlik çəkməzdim. Vyetnamı, özəlliklə bu şəhəri çox sevdim. İnsanları səmimi, dostcanlıdırlar. Xariciləri çox sevirlər. Hətta mənə yaxınlaşıb şəkil, video çəkdirmək istədiklərini bildirirdilər”.

Səidənin alışa bilmədiyi məsələlərdən biri də yeməklər olub. Qorxduğu başına gəlib: “İlk gəldiyimdə yeməklərdən alışmadığım qoxu gəlirdi, o səbəbdən çöldə yemək yeyə bilmirdim. Yeməklərində donuz əti olduğu üçün çox əziyyət çəkdim. Bütün yeməklərdə balıq sousu istifadə edirlər. Mən isə heç vaxt dəniz məhsulları sevməmişəm. Fo (Pho) deyilən milli yeməkləri var. Hansı ki, ilk vaxtlar gələndə yeyə bilmirdim. Lakin hazırda ən sevdiyim yeməklərdəndir”.

**MOTOSİKLETLƏR ÖLKƏSİ**

Əli də uzun müddət Asiya ölkələrində yaşamasına baxmayaraq, oradakı yeməklərin bəzilərini yeyə bilmir: “Donuz əti hər yerdə istifadə olunur. O səbəbdən küçə yeməklərindən çox da yeyə bilmirik. Küçədə it və pişik əti satdıqlarını görə bilərsiniz”.

Vyetnam deyəndə ağlımıza aşağı büdcəli, iqtisadi cəhətdən inkişaf etməmiş ölkə gəlir. Əli isə deyir ki, heç də belə deyil: “Evləri ofisə oxşayır, bəzi yerlərdə evdə ayaqqabı ilə gəzirlər. Vyetnam “kofeşop”ları ilə məşhurdur. Burada texnoloji cəhətdən elə şeylər var ki, Azərbaycanda yoxdur. Məsələn, hər yerdə QR kodla ödəniş edə bilirsiniz. Təkcə paytaxt Hanoy şəhərində yox, hər hansı bir ucqar kəndə də getsəniz, hətta yolun kənarında tərəvəz alanda da bu, mümkündür. Vyetnamda motosikletdən həddən artıq çox istifadə olunur. Maşın çox azdır. Yeddi milyonluq Hanoyda səkkiz milyon motosiklet var. Fabrik və zavodlar çoxdur. Bu səbəbdən də çox çirkli şəhərdir. İnsanlar çox vaxt küçədə maska ilə gəzirlər”.

Əli vyetnamlıların milli bayramlarından da danışdı: “Vyetnamlıların Tet adlı bayramı var. Bu, onlarda yeni il hesab olunur. Bir həftə tətil elan edilir və iki gün heç bir yer açıq olmur. İki gündən sonra bəzi marketlər və müəyyən yerlər fəaliyyət göstərsə də, əksəriyyət istirahətdə olur. O səbəbdən bayramdan öncə insanlar tədarüklərini görürlər”.

> *Vyetnamda motosikletdən həddən artıq çox istifadə olunur. Maşın çox azdır. Yeddi milyonluq Hanoyda səkkiz milyon motosiklet var. Fabrik və zavodlar çoxdur. Bu səbəbdən də çox çirkli şəhərdir.*

**KƏŞF EDİLMƏMİŞ MAYAMİ...**

Səidə ilə virtual şəkildə Vyetnamı səyahət etdik: “Taylandın Phuket adasına getmişik. Bu yay da Vyetnamın Dounan(Da Nang) şəhərinə getdik. Ora çox gözəldir. Hətta Əliyə dedim köçək, burada yaşayaq. Şəhər mədənidir, havası çox təmizdir. Kəşf edilməmiş Mayami də deyə bilərik. Dəniz, qumluq bitdikdə asfalt yol başlayır və şəhər mənzərəsi ilə qarşılaşırsınız. Planımızda var ki, gələcəkdə orada yaşayaq. Burada Fukuok (Phu Quoc) adası çox məşhurdur. Əvvəlki paytaxt Hoşimini (Ho Chi Minh) də gəzmişik. Himbi (Ninh Binh), Sa Pa, Halon (Ha Long) şəhərlərində də olmuşuq. Dağlıq Sa Pa şəhərinin də havası gözəldir. Dünyanın ən təmiz şəhərlərindəndir. Halon isə okeanın içərisində dağlardan ibarət adalar qrupudur. Dünyanın yeddi möcüzəsindən biridir”.

Səidə deyir ki, səyahətdən başqa ortaq fəaliyyətləri oyunlar oynamaqdır: “Daha çox dominonu sevirik. Birlikdə mənəvi kitablar oxuyuruq. Həmçinin mən şəhərdə gəzəndə fərqli dadlar kəşf edəndə, gedib birlikdə də yoxlayırıq”.

**“VYETNAMDA 70 NƏFƏRƏ YAXIN AZƏRBAYCANLI VAR”**

Cütlüyümüz vətəndən kənarda olsa da ənənələrimizi unutmur. Səidənin sözlərinə görə, bütün bayramlarımızı qeyd edirlər: “Novruz bayramını adətən səfirliyimizlə keçiririk. Qurban bayramında da bayram süfrəsində toplaşırıq. 28 May Müstəqillik Gününü qeyd edirik. İldə 3-4 dəfə rəsmi şəkildə görüşürük. Vyetnamda 70 nəfərə yaxın azərbaycanlı var. Onlardan da 20-si Hanoy şəhərində yaşayır. 10-u ilə çox yaxın münasibətimiz mövcuddur”.



Səidə qeyd edir ki, vyetnamlılar Azərbaycanı dəmək olar ki, tanımırlar: “Heç Türkiyəni də tanımırlar. Bir az Rusiyanı tanıyırlar. Azərbaycanın Türkiyənin və İranın yaxınlığında yerləşdiyini izah edərək az-çox tanıtmağa çalışırıq. Azərbaycanı tanıyanlar da yaşlı nəsildir. Səfirliyimiz turizm universitetlərində tədbirlər təşkil edir. Hər il Azərbaycan mətbəxi ilə bağlı ən azı 2-3 tədbir olur. Bir çoxuna bizi də dəvət edirlər”.

# ASAN VİZA, HOTELLƏRƏ NƏZARƏT VƏ MARAQLI MARŞRUTLAR



Azərbaycana gələn turistlərin sayında ciddi artım müşahidə edilir. 2024-cü ilin yanvar-iyul aylarında ölkəyə dünyanın 182 ölkəsini təmsil edən bir milyon 502,7 min əcnəbi və vətəndaşlığı olmayan şəxs daxil olub. Bu göstəricinin daha da artırılması mümkündür.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Gəlmə turizmi dövlətin rifahının artırılmasının mühüm mənbəyi olmaqla yanaşı, gəlirli və intensiv turizm növlərindən hesab olunur. Dünya ölkələri iqtisadiyyatlarının inkişafı üçün gəlmə turizminə daha çox diqqət yönəldirlər.

Son illər bizim ölkəmizə gələn turistlərin sayında artım olması da bu sahədə görülən işlərin hədəfə doğru irəliləməsindən xəbər verir. Xüsusən, 2024-cü ilin yanvar-iyul aylarında Azərbaycana dünyanın 182 ölkəsindən bir milyon 502,7 min əcnəbi və vətəndaşlığı olmayan şəxsin daxil olması gəlmə turizminin inkişafında xüsusi bir mərhələ sayıla bilər. Təbii ki, bu statistikanı daha da inkişaf etdirmək və ölkə iqtisadiyyatına daha böyük gəlirlər qazandırmaq olar.

Turizmçilər gəlmə turizminin inkişafında ölkəmizin xaricdə təbliğatının, beynəlxalq siyasi, idman və mədəni tədbirlərin və s. rol oynadığını qeyd edirlər. Bununla belə, bu istiqamətdə görülməli işlərin çox olduğunu da deyirlər.

**TURİSTLƏRİN ÖLKƏMİZƏ GƏLMƏSİNƏ SƏBƏB**

Turizmçi Tərlan Quliyev hesab edir ki, ölkəmizə gələn turistlərin sayının artmasının köklü bazası var: "Bu, uzun illər hazırlanan hərtərəfli strategiyanın nəticəsidir. Prezident fərmanıyla ölkəmizdə "İxtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi" təsdiq edilib. Bu sənəddə turizmin inkişafı və 2025-ci ilə qədər turist sayının 6 milyona çatdırılması nəzərdə tutulmuşdu. Uzun illər Azərbaycanın xarici ölkələrdə təmsil olunması, beynəlxalq sərgilər, konfranslar, biznes tədbirlərinin ölkəmizdə keçirilməsi və s. ölkəmizə turist axınına səbəb olur. Təbii ki, biz bununla kifayətlənmir, dünyanın bütün qitələrində ölkəmizi təmsil etməkdə davam edirik. Qarşıda Formula 1-in Bakı Qran Prisi və COP29 kimi beynəlxalq əhəmiyyətli tədbirlər var. Bu mühüm tədbirlər də dünya turistlərinin ölkəmizə marağının artmasına səbəb olacaq". Turizmçi hesab edir ki, bu tip tədbirlərin davamlı olması Azərbaycanı böyük bir turizm destinasiyasına çevirə bilər: "Bunun üçün hər cür potensialımız, ölkəmizin tarixi-mədəni irsi, təbiəti, turistlərə təklif etmək üçün marşrutlarımız var. Bütün bunlar ölkəmizin turizm bumu yaşamasına səbəb ola bilər".

**ANCAQ QƏBƏLƏ VƏ QUSARLA KİFAYƏTLƏNMƏK OLMAZ**

Gəlmə turizmi üzrə menecer Vasif Yadigarovun fikrincə, gəlmə turizminin inkişafına yönəlmiş layihələrin sayının artırılmasına ehtiyac var: "Turistlərin diqqətini cəlb edən layihələr hazırlamaq lazımdır. Ən əsası, viza şərtlərinin asanlaşdırılmasıdır. Məsələn, Hindistanla ölkəmiz arasında viza rejimi sadələşdirilib. Ona görə də onlar daha çox başqa ölkəyə deyil, Azərbaycana gəlirlər. Hesab edirəm ki, Avropanın diqqətini çəkən daha keyfiyyətli layihələr hazırlamağa da ehtiyac var. Çünki ölkəmizdə daha çox potensial var, sadəcə onları dəyərləndirmək lazımdır". Turizmçinin fikrincə, ölkəmizdəki hotellərin hamısı ulduzuna görə adekvat omasa da, sayı kifayət qədərdir: "Təbii ki, aşağı səviyyəli butik hotellər də olmalıdır. Çünki hər turist öz cibinə uyğun hərəkət edir. Bizdə hotel turizmi güclü inkişaf etmir. Hotellərə güclü nəzarət olsa, onların təsnifatlaşması da düzgün olar". Turizmçi digər problemi paketlərə daxil olan rayon səfərlərinin azlığında görür: "Əksər paketlərə rayonlar daxil edilib. Amma şablon olaraq hamısında iki rayonun - Qəbələ və Qusarın (Şahdağ) adı yer alıb. İstərdik ki, bunların da sayı çox olsun".




## AŞAĞI BÜDCƏLİ AVİAŞİRKƏTLƏRƏ EHTİYAC

Turizmçi Anar Həsənov isə gəlmə turizmində turist sayının artırılmasına əsas maneəni aşağı büdcəli (loukost) aviaşirkətlərin ölkəyə cəlb edilməməsində görür: "Hazırda ölkədən uçan "loukost" aviaşirkətlər Budapeştə və ya Abu-Dabiyə 55 dollara uçurlar. Ölkəmizdə bir çox hava limanları var. Gəncə, yeni açılan Zəngilan, Füzuli və s. aeroportlara "loukost" şirkətləri cəlb etsələr, vağzallardan həmin hava limanlarına birbaşa avtobuslar təşkil olunsa, bu, böyük effekt verər. Təəssüf ki, bizdə əvvəl aşağı büdcəli aviaşirkət vardı, sonra onu yığışdırdılar. Quru sərhədlər açıq olanda turistlər Gürcüstana gedib oradan uçurdular. İndi o imkan da yoxdur". Turizmçi uçuş biletlərinin hazırda çox baha olmasından şikayətlənir: "Hazırda Bodruma gediş-dönüş bileti 1300 AZN-dir. Türkiyə bizim üçün necə önəmlidirsə, türk vətəndaşları da eləcə Azərbaycana gəlmək istəyirlər. Amma bu məbləğə bilet almaq onlara əl vermir. İstanbula baqaj daxil birtərəfli uçuşun qiyməti 450 AZN-dir. Türkiyədə yaşayanların ölkəmizə gəlməsi üçün qiymətin aşağı olması lazımdır. Olmadıqda onlar daha ucuz bilet alıb başqa ölkələrə getməyə üstünlük verirlər. Müştəri xaricə getmək istəyəndə ilk növbədə biletin qiyməti ilə maraqlanır. O, hoteli büdcəsinə uyğun qiymətə seçə bilir. Bunun üçün müxtəlif seçimlər var. Amma təyyarə bileti almaq üçün belə bir seçim yoxdur. Digər tərəfdən, dəmiryolunun inkişafına ehtiyac var. Bizdə sürətli qatarlar olsa da, sürətləri çox deyil. Bu problemlər həll olandan sonra ölkəmizdə də turistlərin sayı çoxalacaq. Bu isə hotellərin sayının artmasına səbəb olacaq. Məsələn, mətbəxi, təbiəti fərqli olduğuna görə Lənkəran zonasını turistlər üçün seçirik. Amma orada üzə çıxarılası cəmi bir hotel var. Say artandan sonra rəqabət yaranacaq və qiymət formalaşdırılacaq. Hazırda isə bizim ölkəmizdə istirahət etmək xaricdə istirahət etməkdən üç dəfə bahadır".



Anar Həsənov

Tərlan Quliyev

Vasif Yadigarov

## ƏHALİNİN LOMBARDLARLA BAĞLI ŞİKAYƏTLƏRİ VƏ NARAHATLIĞI ARTIR

# “ƏLİNİ VERİRSƏN, QOLUNU QOPARDIRLAR”

Dünyanın bir sıra ölkələrində lombardlarla bağlı xüsusi qanunvericilik aktları olduğu halda Azərbaycanda onların fəaliyyəti ayrıca tənzimlənmir. Qanunvericilikdəki boşluqlar isə müəyyən problemlərə yol açır.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

“Əlini verirsən, qolunu qopardırlar”... Bu məsəli son vaxtlar lombardlarla bağlı problemlər yaşayan, kifayət qədər borcları yaranan insanlardan eşidirik. Kimisi 2,2 min manat kredit götürüb, 45 min manat ödədiyini deyir, kimisi girov kimi qoyduğu qızılların ona qaytarılmadığını, kimisi oğurlandığını bildirir. Deməli olar ki, hər ay bu problemlərlə üzləşən vətəndaşlara rast gəlirik.

Bəs necə olur ki, bəzi lombardlar vətəndaşı rahatlıqla aldada bilir?

### ƏN QƏDİM BORC MÜQAVİLƏSİ

Vəkil Anar Ramazanov “Kaspi” qəzetinə açıqlamasında bildirdi ki, lombard Azərbaycan qanunvericiliyində girov müqabilində bağlanması nəzərdə tutulan müqavilə növlərindən biridir. Amma lombardı digər müqavilələrdən fərqləndirən cəhətlər var: “Tarixi baxımdan da lombard ən qədim borc müqavilələrindən biridir. Bir tərəf pula olan mülkiyyət hüququnu digər şəxsə verir. Lombard təşkilatlarının fəaliyyətinin tənzimlənməsi ilə bağlı əsas normativ hüquqi akt Mülki Məcəllənin 302-ci maddəsinin girov fəslində yerləşir. Lombardda bağlanan kredit müqaviləsini bizim Mülki Məcəllə girovun bir növü kimi müəyyənləşdirir”. Mütəxəssis deyir ki, Mülki Məcəlləyə görə, lombard kreditinin bağlanması “girov bileti” ilə rəsmiləşdirilir: “Girov bileti”nin də forması Maliyyə Nazirliyinin 4 aprel 2016-cı il tarixli qərarı ilə təsdiq edilmiş qaydalarla müəyyənləşir. Lombard kreditlərində girov qoyulan qiymətli əşyalar “girov bileti”ndə müfəssəl şəkildə təsvir olunub. Orada girov qoyulmuş qiymətli əşyaların adı, növü, çəkisi, əyarı və digər xüsusiyyətləri göstərilir. Hətta təcrübədə çox vaxt mübahisə olmasın deyə, girov qoyulan əşyaların şəkli də çəkilir ki, vətəndaş gələcəkdə girov qoyduğu əmlakı tanısın və mübahisə yaranmaasın. Bundan əlavə, vətəndaşın hüququ var ki, girov qoyduğu qiymətli əşyaların videosunu da çəksin. Kredit alan vətəndaş lombard kreditini vaxtında ödəmədikdə də, lombardın hüququ var ki, girov qoyulan qiymətli əşyaları hərracda sataraq, öz borcunu götürsün. İpoteka müqavilələrindən fərqli olaraq, lombard girovunda təşkilatın hərracdan əldə etdiyi məbləğ vətəndaşın borcundan az olsa belə, onun lombard qarşısında öhdəliyinə xitam verilir. Digər girov müqavilələrində isə girov predmeti borcu ödəmədikdə, vətəndaşın digər əmlakına yönəldilə bilər”.



Anar Ramazanov




### LOMBARD TƏŞKİLATINDA YANĞIN OLARSA...

Vəkil vurğulayır ki, dünyanın bir sıra ölkələrində lombardlarla bağlı xüsusi qanunvericilik aktları olduğu halda, bizdə onların fəaliyyəti geniş tənzimlənmir: “2002-ci ilə qədər lombard təşkilatları lisenziyalaşdırılmış fəaliyyətlə məşğul idilər. Daha sonra sahibkarlığın inkişafına dəstək məqsədilə, lisenziya ilə bağlı bir sıra tələblər ləğv edildikdə, bu, lombard təşkilatlarına da şamil edildi. Lombardlarla bağlı 2014-cü ildə qəbul edilən normativ hüquqi akt var. O da lombardların çirkli pulların leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı fəaliyyəti ilə bağlıdır. Ümumilikdə, Mülki Məcəllə də var, lakin lombard təşkilatının fəaliyyəti, minimum kapitalı, idarə edilməsi hansı şəkildə həyata keçirilməsi kimi məsələlər tənzimlənmir. Məsələn, lombard təşkilatlarında kassanın təhlükəsizliyinə dair normativ standartlar bugünkü qanunvericilikdə yoxdur. Lombard təşkilatında yanğın olarsa, orada qiyməti 100 minlərlə ölçülən girov əşyalar məhv ola bilər. Bunların sığortalanması ilə bağlı tələb də yoxdur”.

### LOMBARDDA QOYULAN GİROV MƏNİMSƏNİLƏ BİLMƏZ

Lombardların dələduzluqla məşğul olması məsələsinə gəldikdə isə, vəkil deyir ki, Mülki Məcəlləyə bununla bağlı düzəlişlərin edilməsi vacibdir: “Lombardlarda hətta vətəndaşın qoyduğu qızıl-zinət əşyasının bəzi hallarda surəti hazırlanır və vətəndaşa təqdim olunur, girovlar mənimsənilir. Onların məsuliyyətə cəlb olunmasına baxmayaraq, vətəndaşların əmlakını qaytarmaq qeyri-mümkün olur. Bəzən təcrübədə görürük ki, lombardlar vətəndaşa təzyiq edir. Deyir ki, müqavilədə göstərilən müddətdə pul ödənilməsə qızıl müsadirə ediləcək. Vətəndaşlar bilməlidir ki, qanunvericiliyə əsasən, lombardda qoyulan girov heç bir halda mənimsənilə bilməz. Bu, qanunvericiliklə qadağandır. Girov açıq hərracda satılmalıdır və bu prosedurlar Mülki Məcəllə ilə tənzimlənir”.

## ÖLKƏMİZDƏ LOMBARDLAR NİYƏ POPULYARDIR?

İqtisadçı ekspert Eyyub Kərimli deyir ki, bu gün lombardların əhali arasında populyarlığının əsas səbəbi əlçatan olmasıdır: “Yəni kiminsə təcili vəsaitə ehtiyacı olanda hər hansı qiymətli bir əşyanı lombarda girov kimi təqdim edib istədiyinə nail olur. Hətta bəzən lombardlar mobil telefon, kompüter, avtomobil girov götürüb dərhal vəsait ayırırlar. Müştərilərdən rəsmi gəlir yerləri tələb olunmur. Bankalardakı sənədləşmə işləri lombardların fəaliyyətinə geniş imkanlar yaradır və sui-istifadə halları çoxalır. İnsanlar lombardlardan fəaliyyətləri ilə bağlı sənəd tələb etməli, imza atdıqları sənədlərə diqqət yetirməli, müqavilə şərtlərini öyrənməlidirlər. Bəzən müşahidə edirik ki, lombardlar gizlin yerlərdə kiçik xidmət ofisi kimi fəaliyyət göstərirlər. Əlbəttə, bu, şübhə yaratmalıdır”.

### VƏTƏNDAŞLAR ƏGƏR LOMBARDA MÜRACİƏT EDİRLƏRSƏ...

İqtisadçı vurğulayır ki, ölkədə qanunsuz fəaliyyət göstərən, özlərini lombard təşkilatları kimi qələmə verən qurumlar var. Vətəndaşlar əgər lombarda müraciət edirlərsə, nəyə imza atdıqlarına baxmalı, onların qanuni fəaliyyət göstərmələrini araşdırmalıdırlar: “Bu xidmətlərdən istifadə edən vətəndaşlar kifayət qədər zərər görürlər. Həm faizlər çox olur, həm müştərilərinin girov qoyduqları əşyaları itirirlər. Tövsiyə edərdim ki, insanlar daha çox banklardan kreditlər əldə etsinlər. Bəzi banklar lombard xidmətlərini də göstərir ki, orada asanlıqla və qanuni yolla kreditlər əldə etmək olar. Bunlar daha təhlükəsizdir”.



Eyyub Kərimli

NƏ ÜÇÜN ÖTƏN İL ŞİRİN QARPIZ TAPMAQ ƏSL TAPINTI İDİ, BU İL İSƏ, YOX?

# QARPIZ KƏSDİM BAL KİMİ



Bu il qarpız sevənlərin üzü gülür. Səbəb bazarlarda şirin və dadlı qarpızların çoxluğudur. Keçən illə müqayisədə bu il bazara çıxarılan məhsullar keyfiyyəti ilə fərqlənir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Yay fəslinin ən məşhur təamlarından biri də qarpızdır. Qarpız həm dadlı, həm də sərinləşdirici xüsusiyyətləri ilə isti günlərin simvoludur. Susuzluğu yatırdır, həzm prosesini yaxşılaşdırır, qanı duruldur. Amma şirin qarpız tapmaq asan deyil. Xüsusilə də, ötən il şirin qarpız seçmək əsl tapıntı idi. Hətta sosial şəbəkələrdə "bazarda şirin qarpız yoxdur", "bu il şirin qarpız yemədik" kimi statuslar da yazılırdı. Builki qarpızlarla bağlı fikirlər isə müsbətdir. Qarpızların çoxu dadlı və şirindir.

Maraqlıdır, qarpızın dadlı və şirin olması nədən asılıdır? Nə üçün ötən il şirin qarpız tapmaq əsl tapıntı idi, bu il isə, yox?

### QARPIZIN İNKİŞAFINI AZALDAN FAKTORLAR

Hər rayonun spesifik meyvəsi olur. Quba ağ alması, Ordubad əriyi, Lənkəran naringisi ilə məşhur olduğu kimi Sabirabad da qarpızı ilə tanınır. Şirin qarpız deyəndə ağla Sabirabad gəldiyi üçün, sualımızı Sabirabadda qarpız əkini ilə məşğul olan Mədət Manafova ünvanladıq.

Həmsöhbətimiz deyir ki, qarpızın şirinliyi onun sortundan, yetişmə dərəcəsindən, torpaq şəraitindən, iqlimindən, suvarma və gübrələmədən, eləcə də yığım zamanından asılıdır. Onun sözlərinə görə, bu faktorların hər biri qarpızın şirinliyinə təsir






edir: "Tam yetişmiş, doğru şəraitdə böyümüş qarpızlar daha şirin olur. Qarpız şoran torpaqlarda yaxşı inkişaf etmir. Şoran torpaqlarda duz miqdarı çox olduğundan, bitkilərin kökləri suyu və qidaları effektiv şəkildə mənimsəyə bilmir. Bu vəziyyət qarpızın inkişafını azaldır. Qarpız üzvi maddələrlə zəngin, günəşli və isti iqlim şəraitində yetişir. Torpağın düzgün tərkibi və suvarma şəraiti qarpızın yaxşı böyüməsi və yüksək keyfiyyətli məhsul verməsi üçün əsasdır".

M.Manafov vurğulayır ki, Sabirabad bölgəsi qarpızın yetişməsi üçün ideal şəraiti ilə tanınır. Sabirabadın isti iqlimi və günəşli hava şəraiti qarpızların yaxşı böyüməsinə və şəkər tərkibinin artmasına kömək edir. Torpağın mineral tərkibi və suvarma imkanları qarpızın şirinliyini artırır. Amma burada da suvarma dəqiq aparılmalıdır: "Sabirabad isti yerdir və qarpız da istini sevir. Ona görə bu torpaqda qarpız düzgün əkildikdə, becərildikdə şirin olur. Meyvənin inkişafı zamanı, xüsusilə erkən mərhələlərdə bol suvarma vacibdir. Amma qarpız meyvə kimi formalaşmağa başladıqda, suvarma azaldılmalıdır. Çünki su çox veriləndə qarpızın şəkər tərkibi azalır. Bundan əlavə, qarpızı yetişdirmək üçün peyindən istifadə edirik. Peyin, torpağın strukturunu yaxşılaşdırır, üzvi maddələrlə zənginləşdirir və bitkiləri qidalandırır. Sabirabad bölgəsi uzun illərdir qarpız əkini ilə məşğul olduğu üçün burada yerli əkinçilər təcrübəlidir. Bu təcrübə də qarpızın keyfiyyətli yetişdirilməsində özünü göstərir".

### ÖTƏN İL BAZARDA SABİRABAD QARPIZI AZ İDİ

Ötən il qarpızın şirin və dadlı olmamasının səbəblərinə gəldikdə isə, həmsöhbətimiz bildirir ki, ötən il Sabirabadda qarpız əkini istənilən səviyyədə deyildi: "Ötən il bu bölgədə qarpız əkənlərin əksəriyyəti pambıq əkininə yönəlmişdi. Buna görə də Sabirabad qarpızları bazarda azlıq təşkil edir, qarpız ehtiyacını digər rayonlar qarşılayırdı. Bu il isə kifayət qədər qarpız əkilib. Aran zonası, xüsusilə də, Sabirabad qarpızı şirinliyi ilə seçilir. Bu səbəbdən bu il bazarda ötən ilə nisbətən şirin qarpız daha çoxdur".



Mədət Manafov

## "DAHA ÇOX SU VERİB, DAHA BÖYÜK MƏHSUL ALACAM"

Mütəxəssis də təsdiqləyir ki, qarpız susuzluğa davamlı bitkidir, suyun çoxluğu onun keyfiyyətini azaldır: "Suyun çox verilməsi aqrotexnikanın pozulmasıdır. Fermer düşünür ki, daha çox su verəcəm, daha böyük məhsul alacam. Amma bu zaman keyfiyyət azalır. Qarpızı daha çox suvaranda onun şəkəri aşağı düşür, amma iri olur. Bu zaman insanlar şirinliyi hiss etmir. Qarpızın şirin olmasında əkildiyi ərazidəki minerallı torpaqlar böyük önəm kəsb etmir. Ötən ilin qarpızın şirin olmama səbəblərindən biri günəşli havaların azlığı, düzgün becərilməməsi ola bilər".

### ŞİRİN QARPIZI NECƏ SEÇƏ BİLƏRİK?

Qarpız əkini ilə məşğul olan Mədət Manafov deyir ki, qarpız seçərkən ilk olaraq onun rənginə və görünüşünə diqqət etmək lazımdır: "Yaxşı yetişmiş qarpızın qabığı tünd yaşıl rəngdə olur və üzərində ağ zolaqlar olmalıdır. Çox böyük qarpızlar bəzən çox su tərkibinə malik ola və şirinliyi az ola bilər. Orta ölçülü qarpızların şirin olma ehtimalı daha çoxdur. Bundan əlavə, qarpızın qabığı sərt və düz olmalıdır. Yumşaq və ya çuxurlu yerləri olan qarpızlar yaxşı yetişməmiş və ya zədələnmiş ola bilər. Diqqət etməli olduğunuz tək şey qarpızın saplağının nə qədər quru olmasıdır. Qarpızın saplağı qurudursa, bu, yetişmiş olduğunu göstərir. Gövdəsi yaşıldırsa və qurudulmayıbsa, bu, qarpızın vaxtından əvvəl yığılması deməkdir".



Fotolar: Rüfət Mikayılov-Global Media Group

## QARPIZIN ƏN TƏLƏBKAR OLDUĞU TƏBİƏT HADİSƏSİ



Elmar Allahverdiyev

Tərəvəzçilik Elmi Tədqiqat İnstitutunun İdarə Heyətinin sədri Elmar Allahverdiyev də "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, qarpızın şirin olması genetik faktorlardan və becərmə şəraitindən asılıdır: "Şəkər yüksək olduqca, qarpız da şirin olur. Bu da bir çox faktordan asılıdır. İlk olaraq genetik faktor, həmin sortun xüsusiyyətləridir. Elə qarpız sortu var ki, çox şirindir, eləsi var ki, nisbətən şirindir. Şirinlik becərmədən də asılıdır".

Mütəxəssis bildirir ki, qarpızın ən tələbkar olduğu təbiət hadisəsi günəşdir: "Günəşli günlərin sayı çox olanda qarpız şirin olur. Çünki yetişmə prosesində gün işığından daha çox şəkər toplaya bilir. Builki iqlim şəraiti qarpızın yetişməsi üçün münbit olub. Fermerlərin becərmə texnikası da burada əhəmiyyət daşıyır. Onların yeni texnologiyalara yiyələnmələri ilbəil artır. Müasir gübrələrdən istifadə edirlər, bu da öz müsbət təsirini göstərir".

# MÜƏLLİM İNKİŞAFI ÜÇÜN ÇALIŞMAYANDA

“Sertifikasiyadan kəsilənlərin əksəriyyəti orta ixtisas müəllimləridir. Onlar kollecdə dörd il müddətində zəif oxuyublar. Üstəlik öz üzərlərində işləməyiblər. Gündəlik dərsi sinifdə şagirdə plansız keçməkləri onların imtahandan lazımi balı toplaya bilməməsinə səbəb olub”.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az




Xarici dil müəllimlərinin sertifikatlaşdırma nəticələrinə görə orta balı ən yüksək və ən aşağı olan rayon və şəhərlərin adlarının açıqlanması bu sahədə mövcud problem və nöqsanlara diqqət çəkməyə əsas yaradıb. Sertifikatlaşdırmada ən yüksək nəticə göstərən bölgələr siyahısında Sumqayıt, Zəngilan, Mingəçevir, Bakı, Abşeron, Qazax, Qəbələ, Xaçmaz və s. kimi şəhər və rayonların adları yer alıb. Zəif nəticə göstərən bölgələr sırasında isə Yevlax, Lənkəran, Goranboy, Cəlilabad, Astara, Tərtər və s. adlarına rast gəlmək olur.

Problemin səbəbini elə bölgələrdə yaşayan fənn müəllimlərindən öyrənməyə çalışdıq.

### ƏNƏNƏVİ METODDAN UZAQLAŞMAMAĞIN PROBLEMİ

Astara şəhər 1 nömrəli tam orta məktəbin ingilis dili müəllimi Babək Rzayevin fikrincə, hər bir müəllimin nəticəsi onun özündən asılıdır: “Bizim zonada nəticələrin aşağı olmasının səbəbi daha çox kollec müəllimlərinin təhsili ilə əlaqədardır. Sertifikasiyadan kəsilənlərin əksəriyyəti orta ixtisas müəllimləridir. Onlar kollecdə dörd il müddətində zəif oxuyublar. Üstəlik öz üzərlərində işləməyiblər. Gündəlik dərsi sinifdə şagirdə plansız keçməkləri onların imtahandan lazımi balı toplaya bilməməsinə səbəbi olub”. B.Rzayev qeyd edir ki, müəllimlərin əksəriyyəti əsasən mətnlərə görə kəsilib: “Bu faktı cənab nazir də qeyd etdi. Biz daha çox şagirdlərə qrammatika öyrədirdik. Arıq buraxılış imtahanının forması da dəyişib: indi oxuma, yazma, dinləmə mətnləri var. Müəllimlərin əksəriyyətinin səhvi də mətn üzrə işlə bağlı olub. İngilis dilində bu kimi leksikoloji problemlərimiz var”. B.Rzayevin sözlərinə görə, xarici dil müəllimləri üçün həm nazirlik, həm də ölkəmizdəki xarici səfirliklərin dəstəyi ilə müəyyən proqramlar və treninqlər təşkil olunur. Gənc Xarici Dil Müəllimləri Birliyi (GXDMB) də tədris ili ərzində müəllimlər üçün bir neçə onlayn və oflayn təlimlər təşkil edir: “Hesab edirəm ki, bu cür təlimləri daha da genişləndirmək lazımdır. Müəllimlər ənənəvi metodlardan kənara çıxmırlar. Amma ənənəvi metodlarla müasir təlim metodları paralel işləməlidir. Həmçinin müəllim öz üzərində işləməli, müasir texnologiyalarla çalışmağı bacarmalı, dünyada baş verən yeniliklərdən xəbərdar olmalıdır. Müasir tədris metodları da buna hesablanıb. Xüsusən, xarici dil müəllimləri bir yerdə dayanmamalı, proqramlara qoşulmalıdırlar. Əgər müəllim yalnız bir dərs planı hazırlayıb gündəlik dərsə daxil olursa, müasir metodla və şagirdlə ayaqlaşa bilməz. Müəllim başqa ölkələrin təcrübələrini də mənimsəməlidir”.

### NƏTİCƏLƏRİN ZƏİFLİYİ TƏLƏBLƏRİN AŞAĞI OLMASI İLƏ BAĞLIDIR

Xaçmaz rayonu, Çarxı kənd orta məktəbin alman dili müəllimi Tavat İsgəndərova tədris etdiyi dilin bir çox regionlarda ikinci xarici dil kimi keçildiyini bildirir: “Bu da müəllimlərin öz üzərlərində işləməməsinə gətirib çıxarır. Müəllim daim öyrənməlidir ki, şagirdlərinə də yeniliklər haqqında məlumat versin”. T.İsgəndərovanın fikrincə, regionlarda nəticələrin zəif olması tələblərin aşağı olması ilə bağlıdır: “10 ildir alman dilini ikinci xarici dil kimi tədris edirəm. Bunun da təsiri böyükdür. Tələb yoxdursa, müəllimlər də öz üzərlərində az çalışırlar. Xüsusən, ikinci xarici dil kimi şagirdlər bu dil üzrə imtahan vermədikləri üçün valideynləri də maraq göstərmir. Onlarda elə bir düşüncə var ki, ingilis dili həmişə öndədir. Ona görə uşaqlarını o istiqamətə yönəldirlər. Amma uşaqlarla işlədikcə onlarda maraq yaranır”.

## KƏND MƏKTƏBLƏRİNDƏ TƏMİNAT ZƏİF OLDUĞU ÜÇÜN

T.İsgəndərova hesab edir ki, alman dili üzrə sertifikasiyada şəhər məktəblərində nəticələr daha yaxşı ola bilər: “Müəllimlərin zəif nəticə qazanmasına dərs otaqlarında dilin tədrisi ilə bağlı lazımi avadanlıqların olmaması da təsir edir. Çünki kurikulum üçün maddi-texniki bazanın olması əsas şərtdir. Kənd məktəblərində bu təminat zəif olduğu üçün, məsələn, linqafonların olmaması, kompüterlərlə tam təmin olunmama da rol oynayır. Həmçinin, alman dili həftədə bir dəfə tədris olunur. İkinci dil olduğu üçün uşaqları olimpiadalara da göndərə bilmirik. Buna baxmayaraq, gənc müəllimlər öz üzərlərində daim işləyir, əllərindəki resurslarla uşaqlara dili sevdirməyə çalışırlar. Yaşlı nəsil üçün çətinlik texnologiyaları öyrənmək bacarıqları ilə bağlı ola bilər. Şagird yeniliklər istəyir. Müəllimlər də bu tələbatları gördükcə özlərini inkişaf etdirməyə çalışmalı, daim təlimlərə qatılmalı, yenilikləri öyrənməlidirlər”.

## BƏZİ MÜƏLLİMLƏR TƏLİMLƏRDƏ İŞTİRAK ETMƏDİLƏR

“Müəllim əgər imtahana gedirsə, öz üzərində çalışmalı idi”, - deyə bəzi rayonların sertifikasiyada zəif nəticə göstərməsinə münasibətini bildirən Qazax rayonu Alı Əliyev adına Hüseynbəyli kənd tam orta məktəbin fransız dili müəllimi Gülnur Əliyeva hesab edir ki, “mən bir şeyi bilirəm” düşünüb dayanmaq lazım deyil: “Bir şeyi nə qədər mükəmməl bilsək də, öz üzərimizdə çalışıb onu daha da təkmilləşdirməliyik. Biliyindən və təcrübəsindən asılı olmayaraq, hər bir müəllim daim öz üzərində çalışmalıdır. Müəllim öyrədərək özü də öyrənir. Bəzi müəllimlərdə isə arxayınlıq yarandı. Onlar elə bildilər imtahan asan olacaq və öz üzərlərində çalışmadılar”. G.Əliyeva deyir ki, üzvü olduğu GXDMB mütəmadi olaraq xarici dil müəllimləri üçün təlimlər keçirir: “Çox müəllim təlimlərə qoşuldu, sual-cavablarda iştirak etdi, bilmədikləri ilə maraqlandı. Bəzi müəllimlər isə təlimlərdə iştirak etmədilər. Sonra onların sertifikasiyada aşağı nəticə göstərdiklərini eşitdim. Təlimlərə qatılan, öz üzərlərində çalışan müəllimlər ən azı keçid balını topladılar. İstəyən müəllim təlimlərə qoşulub özünü inkişaf etdirə, yenilikləri öyrənə bilər”. G.Əliyeva hesab edir ki, müasir dövrün müəllimi yeni metodları mütləq öyrənməlidir. Belə ki, kurikulumda yetərincə üsullar var: “Ənənəvi üsullardan uzaqlaşıb həmin metodlardan istifadə etmək lazımdır. Bu metodlar kifayət qədər maraqlıdır: həm əylənirik, həm öyrənirik. Həm şagird, həm də müəllim öyrənir, Bəzən dərsin nə vaxt keçdiyini bilmirik. Əlbəttə, ənənəvi üsullarla dərs keçən müəllimlər də var. Müasir müəllim dövrün çağırışlarına uyğun dərsini qurmağı bacarmalıdır”.



Tavat İsgəndərova

Babək Rzayev

Gülnur Əliyeva




## SOCAR Özbəkistanda sərgidə təmsil olunur

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) Daşkənddə Azərbaycan məhsullarına və ölkədə göstərilən xidmətlərə həsr olunan "İqtisadiyyatın əsas istiqamətləri – ümumi rifaha doğru addım" adlı sərgidə öz stendi ilə təmsil olunur. "Report"un məlumatına görə, Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri çərçivəsində İqtisadiyyat Nazirliyinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin - AZPROMO-nun təşkilatçılığı ilə təşkil olunan sərgidə SOCAR stendi çoxsaylı ziyarətçilər tərəfindən böyük maraqla qarşılanıb.

Stenddə SOCAR-ın fəaliyyət istiqamətlərinə, o cümlədən apstrim, midstrim, daunstrim, "Yaşıl gündəlik" və insan kapitalı üzrə əldə olunan ən son nailiyyətlərə dair məlumatlar "touch screen" ilə idarə olunan 5 LED monitor vasitəsilə Azərbaycan, rus və ingilis dillərində təqdim edilir.

Stenddə SOCAR-ın müxtəlif ölkələrdə fəaliyyət göstərən nümayəndəlikləri barədə məlumatlar da əldə etmək mümkündür.




## "Bakcell" şəhid övladlarına dəstək olub

"Bakcell"in baş sponsorluğu və "YAŞAT" Fondunun təşkilatçılığı ilə şəhid övladları üçün "Ənənə" yay düşərgəsi təşkil olunub. Göygöl rayonunun Milli Yaylaq Festivalı ərazisində baş tutan tədbirdə 50-dək şəhid övladı iştirak edib.

Hərbi vətənpərvərlik və milli ənənələr mövzusuna həsr olunan düşərgə beş gün (13-18 avqust) davam edib. Tədbirdə gənclərin iştirakı ilə qədim milli oyun növləri üzrə yarışlar, müxtəlif təlimlər və interaktiv oyunlar keçirilib.

"Müasir bacarıqlar və innovasiya" adlı təlim düşərgə iştirakçılarının xüsusi marağına səbəb olub. Təlimdə "Bakcell"in əməkdaşı Rüfət Quliyev gələcəyin peşələri, ən çox tələb olunan bacarıqlar və bu bacarıqların əldə edilməsində texnologiya və innovasiyanın rolundan danışıb. Bundan əlavə, "Bakcell"in innovativ xidmətləri, məhsulları barədə məlumat verilib.

Qeyd edək ki, şəhid və qazilərin ailə üzvlərinə qayğı və diqqətin göstərilməsi "Bakcell" şirkətinin korporativ sosial məsuliyyət (KSM) proqramının əsas istiqamətlərindən biridir.

# REKORD SAYDA QƏBUL




**Bu il ali təhsil müəssisələrinin müsabiqəsində 82 883 nəfər iştirak edib. Onlardan 55 656 nəfəri ali təhsil müəssisələrinə qəbul olunub. 27 117 nəfər dövlət sifarişi əsasında, 28 539 nəfər isə ödənişli əsaslarla təhsil almaq hüququ əldə edib.**

F.ABASOĞLU

Ali təhsil müəssisələrinə qəbul imtahanlarının nəticələri açıqlanıb. Dövlət İmtahan Mərkəzinin məlumatına görə, bu il ali təhsil müəssisələrinin müsabiqəsində 82 883 nəfər iştirak edib. Onlardan 55 656 nəfəri (o cümlədən 7 287 subbakalavr) ali təhsil müəssisələrinə qəbul olunub. 27 117 (o cümlədən 1 579 subbakalavr) nəfər dövlət sifarişi əsasında, 28 539 (o cümlədən 5 708 subbakalavr) nəfər isə ödənişli əsaslarla təhsil almaq hüququ əldə edib.

### ÖDƏNİŞLİ VƏ ÖDƏNİŞSİZ QƏBUL OLANLAR

İxtisas qrupları üzrə qəbulun statistikasına əsasən, I ixtisas qrupu üzrə 18 360 nəfər, o cümlədən ödənişli əsaslarla 4 660, dövlət sifarişli əsaslarla 13 700 nəfər ali təhsil almaq hüququ əldə edib. Bu göstərici II ixtisas qrupunda müvafiq olaraq 14 163, o cümlədən 9 755 və 4 408, III ixtisas qrupunda 14 869, o cümlədən 10 498 və 4 371, IV ixtisas qrupunda 4 150, o cümlədən 1 061 və 3 089, V ixtisas qrupunda isə 4 114, o cümlədən 2 565 və 1 549-dur. Qeyd edək ki, bu il 3 nəfər beynəlxalq fənn olimpiadası, 46 nəfər respublika fənn olimpiadası, 75 nəfər beynəlxalq idman yarışlarının qalibi olduğu, 24 nəfər isə beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramı (IB) üzrə təhsil aldığı üçün müsabiqədənkənar ali təhsil müəssisələrinə qəbul olunmaq hüququ qazanaraq müvafiq ixtisaslara yerləşdirilib. Bundan əlavə, 508 abituriyent SAT imtahanının nəticələrinə əsasən, 108 abituriyent isə ADA məktəbinin məzunu kimi ADA Universitetinə qəbul olunub. Həmçinin, I ixtisas qrupu üzrə 186 abituriyent Azərbaycan – Fransız Universitetinə (UFAZ), IV ixtisas qrupu üzrə 125 abituriyent İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialına, 32 abituriyent (I-IV ixtisas qrupları üzrə) M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialına qəbul olunub.

### ƏN YÜKSƏK KEÇİD BALI OLAN İXTİSASLAR

Nəticələr açıqlandıqdan sonra ən yüksək keçid balına malik ixtisaslar da dəqiqləşib. İlk sırada Bakı Ali Neft Məktəbinin informasiya təhlükəsizliyi ixtisası dayanır - 687 bal. İkinci sırada isə Azərbaycan Tibb Universiteti qərarlaşıb: Tibb ixtisasına keçid 681 bal olub. İlk beşlikdəki sonrakı üç yer yenə də Bakı Ali Neft Məktəbinə məxsusdur: Kimya mühəndisliyi - 678 bal, Kompüter elmləri - 673,5 bal, Kompüter mühəndisliyi - 673 bal.

## NAZİR: "UĞUR QAZANAN HƏR BİR GƏNCİMİZİ ÜRƏKDƏN TƏBRİK EDİRƏM"

Qəbulun nəticələri ilə bağlı təhsil naziri Emin Əmrullayev də fikirlərini açıqlayıb. Sosial şəbəkə hesabındakı paylaşımında nazir bildirib ki, 2024–2025-ci tədris ili üçün ali təhsil müəssisələrinə bakalavriat səviyyəsi üzrə qəbul müsabiqəsinin birinci turunun nəticələrinə əsasən, rekord sayda – 55 656 nəfər tələbə adını qazanıb. "Sevindirici haldır ki, ilk dəfə qəbul aparılan Qarabağ Universiteti və Türkiyə–Azərbaycan Universitetinin nəzərdə tutulan qəbul planı, demək olar ki, tam dolub və hər iki universitetdə təhsil alacaq şəxslərin böyük əksəriyyəti yüksək bal toplayan gənclərdir. Uğur qazanan hər bir gəncimizi ürəkdən təbrik edirəm", - nazir qeyd edib.


Emin Əmrullayev

### UĞUR QAZANMAYANLAR ÜÇÜN İKİNCİ ŞANS

Birinci turun nəticələrinə əsasən, ali təhsil almaq şansını itirənlər də üzülməsinlər. Ali təhsil müəssisələrinin boş qalan (vakant) plan yerlərinin siyahısı növbəti həftənin əvvəllərində "Abituriyent" jurnalının 7-ci sayında dərc olunacaq. Dövlət İmtahan Mərkəzindən bildirilib ki, həmin yerlərə ixtisas seçimi avqustun 28-dən sentyabrın 2-dək aparılacaq. Abituriyentlər elektron ərizədə ali təhsil müəssisələrinin boş qalan plan yerlərinin ixtisasları ilə yanaşı, orta ixtisas təhsili müəssisələrinin (kolleclərin) ixtisaslarının da kodlarını göstərə bilərlər.

TANINMIŞ KİNOAKTYOR, XALQ ARTİSTİ ŞAHMAR ƏLƏKBƏROV HƏMKARLARININ XATİRƏLƏRİNDƏ

# İPƏK KİMİ ADAM

"Şahmar sənətinin fədaisi idi. O, 48 yaşında dünyasını dəyişdi. Amansız xəstəlik ona yaradıcılığını davam etdirməyə imkan vermədi. Şahmar həddindən artıq təbii insan idi".



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

"Şahmar xəstəliyə tutulandan sonra daha çox işləyirdi. Sanki tez gedəcəyini hiss edirdi. Amma özündən sonra tamaşaçılarına yadigar nəsə qoymağa çalışırdı. Şahmar çəkdiyi filmlər üzərində işləyərkən xəstəliyi ilə, ağrılarla da mübarizə aparırdı..."

Tanınmış kinoaktyor, Xalq artisti Şahmar Ələkbərov (23 avqust doğum günüdür) haqqında həmkarlarının xatirələrindən kino lentlərindən tanıdığımız məğrur, mətin aktyorun bir insan kimi xarakterini də öyrənirik.

## ŞAHMAR XOŞBƏXT SƏNƏTKAR İDİ

Xalq artisti Rasim Balayev mərhum həmkarını Azərbaycan kinosunun görkəmli nümayəndəsi adlandırır: "Mən Şahmarı həm də teatrın səhnəsində görmüşəm. İstedadlı teatr aktyoru idi. Əvvəllər "Azdrama"da da rollar oynadı. Hamısı uğurlu işlər idi. Tale elə gətirdi ki, o, özünü kinoya həsr etdi. Əgər Azərbaycanda dublyajın iki-üç ustası vardısa, biri də Şahmar Ələkbərov idi. Mən instituta daxil olmaq istəyəndə onun dublyaj etdiyi filmlərə baxırdım. O vaxtlar "Avropalı gəlin" filmində onun səsinə qulaq asıb heyran olmuşdum. Onun cingiltili səsi hələ də qulağımdadır. Şahmarla bir neçə filmdə çəkilmişəm. O, çox gözəl tərəf-müqabil idi. Şahmar düşünüb-düşündürən aktyorlardan idi". R.Balayev deyir ki, Şahmar bir insan kimi də alicənab idi: "Şahmar ipək kimi adam idi. Heç kimlə işi yox idi. Paxıllıq hissi ona yad idi. Hamının uğuruna uşaq kimi sevinirdi, hamıya hörmətlə yanaşırdı. Hamı da onu bir insan kimi sevirdi". R.Balayev mərhum aktyorun amansız xəstəliyə düçar olduğu vaxtları xatırlayır: "Şahmarın xəstələndiyi vaxtlar da yadımdadır. Müalicə üçün çox yerlərə getdi, xaricə də üz tutdu. Amma sağalmaz xəstəliyə düçar olmuşdu. Onun ölüm xəbərini gec eşitdim. Onda İranda idim. Şahmarın ölümü Azərbaycan mədəniyyəti üçün böyük itki oldu. O, kinomuzda öz yeri və çəkisi olan sənətkarlardan idi. Amma Şahmar xoşbəxt sənətkar idi. Çünki onun oynadığı filmlər həmişə yaşayacaq və insanlar da Şahmarı həmişə məhəbbətlə yad edəcəklər".

## ÜÇ MUŞKETYOR

Xalq artisti Tariyel Qasımov mərhum aktyorla teatr dərnəyinə yazıldığı illərdən dostluq edib: "Atam Ağstafa rayonunda kolxoz sədri idi. Rayona gələn aktyorlar evimizə qonaq gəlirdi. Onları görüb "mən də aktyor olacağam", - deyə qərar verdim. Amma atam məni Bədən Tərbiyəsi İnstitutuna gətirdi. Orada oxuyan vaxt Lütfi Məmmədbəyovun rəhbərlik etdiyi Mədəniyyət Sarayına gəldim. Dərnəkdə Şahmar Ələkbərov və Həsən Əblucla tanış oldum. Şahmar 10-cu sinifdə, Həsən Politexnik İnstitutunun birinci kursunda oxuyurdu. Sonra bu tanışlıq bizim ömürlük dostluğumuza çevrildi. Biz üçümüz də Teatr İnstitutuna qəbul olmağa qərar verdik və arzumuza çatdıq. Ayrılmaz dostlar idik. Bizə "üç muşketyor" deyirdilər. Həm də əlaçı idik. Şəklimiz institutun foyesində vurulmuşdu. Bir gün institutun qəzetində şəklimiz çap olundu. Qəzeti rayonda atama göstərirlər. O, oxuduğum institutu Teatr İnstitutuna dəyişdirdiyimi öyrənincə anamı Bakıya göndərdi ki, məni rayona qaytarsın. Amma mən qərarımı vermişdin. Atam da o gündən mənə pul göndərmədi. Artıq kirayə qalmaq üçün xərcliyim yox idi. Şahmar vəziyyəti görüb məni evlərinə apardı. Anası dedi ki, "Şahmar da təkdir, sən də mənim oğlum, qal bizdə". Mən dörd il onların evində qaldım və institutu bitirdim. Şahmarın anası mənim üçün elçi də getdi. Şahmar əsgər gedəndən sonra mən də onlardan çıxıb Naxçıvana getdim". T.Qasımov xatırlayır: "Bir gün "Dağlarda döyüş" filmi çəkilirdi. Rejissor Fərrux roluna məni çəkmək istəyirdi. Onda İrəvanda idim. İkinci rejissor Əşrəf Mamayev dedi ki, "mən bilirəm, sən Şahmargilin evində yaşamısan, onunla yaxın dostsan. İndi ilk dəfədir ki, onu filmə çəkəcəklər. Onun şansı böyükdür. 20 nəfərin içindən təkcə Şahmar seçilib. Əgər sən gəlməsən, onda Şahmar çəkiləcək. Mən ona dedim ki, "qoy Şahmar çəkilsin, nə sən məni görmüsən, nə də mən səni". Mən İrəvana qayıtdım. Şahmar ilk dəfə filmə çəkildi. Bu rol ona böyük uğur gətirdi. Ondan sonra dalbadal filmlərə dəvət aldı və kinoaktyor kimi məşhurlaşdı. O, rejissorluq etdiyi "Sahilsiz gecə", "Qəzəlxan" filmləri üçün məni çağırıb, "Qasımov, bax, bu ssenaridir, oxu, hansı rolu ürəyin istəyir götür, oyna" deyib. Mən hər iki filmdə çəkildim. Təəssüf ki, Şahmar bizi erkən tərk etdi. O, kinomuz üçün çox işlər görəcəkdi. Şahmarı məzara qoyanda Həsən Əbluc onun qəbri üstündə bərkdən hönkürdü və dedi ki, darıxma, qardaşım, mən də tezliklə gələcəm. İki ildən sonra Həsən Əbluc da rəhmətə getdi. İndi o gözəl insanların yeri boş qalıb..."



## TƏMİZ ADAM DEYƏNDƏ...





Xalq artisti İlham Namiq Kamal sənət yoldaşını həmişə xoş duyğularla xatırladığını deyir: "Şahmar sənətin fədaisi idi. O, 48 yaşında dünyasını dəyişdi. Amansız xəstəlik ona yaradıcılığını davam etdirməyə imkan vermədi. Şahmar həddindən artıq təbii insan idi. El arasında "təmiz adam" sözü var. "Təmiz adam" deyəndə mən məhz Şahmarı düşünürəm. Şahmar haqqında "həyatda yoxdur" sözlərini deyə bilmirəm. İncəsənət Universitetində oxuduğum illərdə o, institutda dərs deyirdi. Biz tez-tez kinostudiyaya dublyaja, çəkilişlərə gedirdik. Biz onun dublyaj səsləndirmələrinə heyran olurduq. Şahmarın radioda da gözəl bədii qiraətləri vardı. Aramızda yaş fərqi olsa da, biz onunla çay da içir, söhbət də edirdik. Onun məsləhətləri bizim üçün çox dəyərli idi. O ziyalı, alicənab insan idi. Şahmar yaratdığı obrazlarını elə bil yaşayırdı. Həyatda da təvazökar və qayğıkeş idi. İndiyə kimi gözümün qarşısındadır: üç dost - Tariyel, Şahmar və Həsən Əbluc. Onlar bir-birinə necə sadiq idilər! Aralarında bir-birlərinə qarşı qardaş məhəbbəti vardı. Yaşadığı ev Qasım İsmayılov küçəsində idi. Mənim babamın evi oradan bir tin yuxarıda yerləşirdi. Həmişə tində rastlaşardıq. Həmişə də "yaxşı olacaq, sən hələ təzə başlayırsan, uğurların çox olacaq" deyərdi".

ÜÇ ƏSRİN QƏZETİ
Kaspi İDMAN
24 AVQUST ŞƏNBƏ 2024 kaspi.az

Avrokubokların yeni formatda keçirilməsi bir sıra yeniliklərə səbəb olacaq. Yeni formatda avrokubokların daha rəqabətli olacağı ehtimal olunur. İlk turlardan güclü kollektivlərin üz-üzə gəlmə ehtimalı oyunların baxımlılığını da artıracaq.



## KLUBLAR "QIŞ YUXUSUNA" GETMƏYƏCƏK

Liqa mərhələsində oyun sayı artdığı üçün bu, təqvimə də təsir edəcək. İlk dəfə yanvar ayında avropkubok oyunları keçiriləcək. ÇL və AL-in Liqa mərhələsi oyunları sentyabr-yanvar, KL oyunları isə sentyabr-dekabr ayları aralığında oynanılacaq. UEFA-nın üç klub yarışının hər birində bir eksklüziv matç həftəsi olacaq, digər iki yarış isə bu həftəyə planlaşdırılmır. Standart həftələrdə ÇL qarşılaşmaları çərşənbə axşamı və çərşənbə günləri, AL və KL görüşləri isə cümə axşamı baş tutacaq. Çempionlar Liqasının eksklüziv həftəsində turnirin oyunları çərşənbə axşamı, çərşənbə və cümə axşamı günləri oynanılacaq. Avropa Liqasının eksklüziv həftəsində yarışın oyunları çərşənbə və cümə axşamı keçiriləcək. Konfrans Liqasının eksklüziv həftəsində turnirin oyunlar cümə axşamı baş tutacaq.

# DAHA ÇOX OYUN, DAHA ÇOX GƏLİR

UEFA-nın 2022-ci ilin mayında qəbul etdiyi qərara əsasən, bu mövsümdən avrokuboklarda yeni format tətbiq olunacaq. Çempionlar Liqası (ÇL), Avropa Liqası (AL) və Konfrans Liqasında (KL) qrup mərhələləri ləğv edilir. Əvəzində hər turnir liqa formatında təşkil olunacaq.

**KOMANDA VƏ OYUN SAYI ARTIR**

Üç avrokubok yarışının hər birinin əsas mərhələsində 36 komanda iştirak edəcək. Daha əvvəl bu say 32 idi. Beləliklə, bu mövsümdən turnirlərin liqa mərhələsində oynamaq hüququ əlavə 12 komandaya da nəsib olacaq. Eyni zamanda, yarışlar arasında əsas mərhələlər üzrə keçidlər aktuallığını itirəcək. Yəni əgər indiyə qədər ÇL-in qrup mərhələsində üçüncü olan komanda AL-də mübarizəni davam etdirmək imkanına malik olurdusa, qrup mərhələləri ləğv edildiyindən bu, mümkün olmayacaq. Lakin təsnifat mərhələlərində keçidlər olduğu kimi qalır.

Komanda sayı ilə yanaşı, oyun sayında da artım olacaq. Məsələn, Çempionlar Liqasında əvvəllər hər iştirakçı minimum altı oyun keçirirdisə, bu mövsüm say səkkizə çatacaq. 36 komanda püşkatma öncəsi reytinqlərinə görə hərəsində doqquz kollektivin olduğu dörd səbətə bölünəcək. Hər klub hər səbətdən iki fərqli komanda ilə dördü evdə, dördü səfərdə olmaqla səkkiz oyun keçirəcək. Ev-səfər prinsipləri də səbətlər əsasında müəyyənləşəcək. Əvvəl qruplar formalaşdırılanda klub hər səbətdən yalnız bir komandaya rəqib ola bilirdisə, yeni mövsümdən özü ilə eyni səbətdə yer alan kollektivlərlə də qarşılaşmalı olacaq. Bu, liqa formatında favoritlərin erkən oynamasını məcburi edir. Güclülər yalnız nisbətən zəiflərlə deyil, bir-birləri ilə də üz-üzə gələcəklər. Eyni zamanda, nisbətən zəiflər yalnız güclülərlə yox, özləri ilə eyni səviyyədə olanlarla da qarşılaşacaqlar.

**SƏKKİZ TURDAN SONRA...**

Liqada səkkiz turdan sonra ümumi turnir cədvəlinin 1-8-ci pillələrində qərarlaşan komandalar birbaşa 1/8 finala yüksələcəklər. 9-24-cü yerləri tutanlar 1/8 finala yüksəlmək üçün ev-səfər prinsipi ilə pley-off oyunları keçirəcəklər. 25-ci və daha aşağı pillələri tutan kollektivlər isə avrokubokda çıxışı başa vuracaqlar.

Avropa Liqasında da format Çempionlar Liqasındakı kimidir. Konfrans Liqasında isə bir fərq var: komandalar səkkiz deyil, altı fərqli rəqiblə üz-üzə gələcəklər.



## ARTAN QAZANC

Oyun sayının çoxalması daha çox reklam və yayım gəliri anlamına gəlir ki, bu da UEFA-nın turnirlər üçün mükafatları da çoxaltması deməkdir. Üstəlik, böyük klubların qitə futbol qurumuna təzyiqləri, xüsusən Çempionlar Liqasının Avropa Super Liqası ideyasına yaxınlaşması ilə klublara ödənəcək pullar çoxalıb.

Çempionlar Liqasının əsas mərhələsinə yüksələn hər kollektiv 19 milyon avroya yaxın məbləğ əldə edəcək. Artıq turnirin pley-offunda yarışan "Qarabağ" buna görə 4,3 milyon avro əldə edib. Liqa mərhələsində hər qələbə 2,1 milyon avro, heç-heçə isə 750 min avro qazancdır. Turnirin qalibi isə büdcəsini əlavə 25 milyon avro zənginləşdirəcək.

Avropa Liqasının qrupunda hər qələbə 450 min avro, heç-heçə 150 min avro qiymətindədir. Bu turnirin qalibi isə 13 milyon avroya sahib çıxacaq. Konfrans Liqasının əsas mərhələsində iştirak klublara 3,17 milyon avro qazandıracaq. Azərbaycan təmsilçilərindən hazırda pley-offda olan "Zirə" buna çox yaxındır. KL-in qalibi isə yeddi milyon avro mükafata sahib çıxacaq.

## YENİ FORMATIN BİZƏ TƏSİRİ

Ümumi iştirakçı sayının artması Azərbaycan üçün də əlavə şanslar yaradıb. Son illər klublarımız Avropa Liqasından kənar qalırdılarsa, bu mövsümdən ölkə kubokunun qalibi AL-də mübarizə aparmaq hüququna malikdir. "Zirə" məhz orada çıxış etdikdən sonra, Konfrans Liqasına keçid etdi. Mübarizəyə Avropa Liqasından başlamaq komandalara əlavə şans verir ki, son illər klublarımız bundan məhrum idilər. Ümumi iştirakçı sayının artması nisbətən zəif futbol ölkələrinin mənafelərinə uyğundur. Bu mövsüm pley-offda bir neçə debütantın olması bunun göstəricisidir. Mükafat fondunun yüksəldilməsi isə böyük klubların işinə yarıyır.

Ümumilikdə yeni formatda avrokubokların daha rəqabətli olacağı ehtimal olunur. İlk turlardan güclü kollektivlərin üz-üzə gəlmə ehtimalı turnirlərin baxımlılığını da artıracaq. Lakin daha geniş təhlillər, formatın özünü doğruldub-doğrultmaması ilə bağlı müfəssəl fikirlər səsləndirmək üçün ən azı bir mövsümün yekunlaşması lazımdır.